Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8 AVQUST 2019-cu il

№ 139 (4037)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# DÜNYA «VALYUTA MÜHARİBƏSİ» MANATI BAHALAŞDIRIR(?)

■ səh. 10 ■

## Paşinyanın «ölü Miatsumu» xortlatmağı, «iflas ssenarisinə» Əliyevin öncül yanaşması və radikal müxaliflərin «erməni dayılığı»...

Aydın QULİYEV yazır

■ səh. 8-9 ■





Paşinyanın "Miatsum sərsəmləməsinə" Azərbaycanın rəsmi cavab reaksiyalarında dəqiq məqamlar...

■ səh. 3 ■

Paşinyanın mitinq sərsəmləmələri Ermənistana qarşı dünyanın fikrini ümumən tam dəyişdi...

■ səh. 5 ■

Paşinyanın mitinqi Qarabağ separatçıları ilə İrəvan arasında ziddiyyətləri dərinləşdirir

■ səh. 7 ■

Rusiyalı ekspert Türkiyənin ehtimal edilən yeni Suriya əməliyyatına qarşı ABŞ-ın planını deşifrə etdi...

■ səh. 6 ■

Vergilər Nazirliyi 2019-cu ilin yanvar-iyun aylarında belə işləyib...

■ səh. 15 ■

Bakıda ilanlar çoxalır - hətta "28 Mall"da ilan?

■ səh. 12 ■




Qondarma «DQR»də ümumerməni oyunlarına ən çoxsaylı nümayəndə ABŞ və Rusiyadan gəlib - həmsədr ölkələrdən gözlənilməz siyasət...

■ səh. 2 ■

Deputatların arasında «zoğal söhbətlərinə» dairə seçicilərindən heç bir reaksiya gəlmədi... Səbəb...

■ səh. 4 ■




Qərbə sığınmış dönük Azərbaycan radikallarının öz aralarında «söyüş döyüşü» başlayıb

■ səh. 9 ■

■ səh. 11 ■

Ahıllara günərzi qayğı mərkəzləri hələlik 10 rayonda - Prezidentin yeni layihəsi...



■ səh. 6 ■

"Ümumerməni oyunları" oyunu Ermənistanın regional təcridini bir az da qatılaşdırdı - üç ölkə...



■ səh. 11 ■

Gürcüstanın Azərbaycan dizelindən imtinası təsdiqlənir - "Avro-5" səbəb, yoxsa bəhanədir...



■ səh. 14 ■

Kağız manatların kəsilməsinin tədricən dayandırılması Azərbaycanda hansı meylləri doğura bilər...



■ səh. 13 ■

Erkən ərə verilmələrə qarşı intihar hərəkətləri...



## Azərbaycanın 6 avqust bəyanatına Ermənistan XİN-in uğursuz cavabı...

*"Ermənistanın danışıqlara xələl gətirən qeyri-adekvat yanaşma nümayiş etdirməsi regional gərginliyə səbəb olur və məsuliyyət onun üzərinə düşür"*

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinə qanunsuz səfəri zamanı səsləndirdiyi təxribatçı fikirlərə münasibətdə qəti mövqeyimizin əks olunduğu 6 avqust tarixli bəyanatına Ermənistan Xarici İşlər Nazirliyinin kifayət qədər xaotik və məntiqi izahı olmayan cavabı diqqətimizi cəlb etdi.**



Baki-xeber.com xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici işlər Nazirliyinin (XİN) Mətbuat Xidməti idarəsinin şərhində yer alır.

Şərhdə deyilir: "Hesab edirik ki, Azərbaycana qarşı silahlı təcavüz həyata keçirərək ölkəmizin Dağlıq Qarabağ və ətraf bölgələrini qanunsuz güc tətbiqi ilə işğal edən, bu ərazilərdəki azərbaycanlı əhaliyə qarşı tam etnik təmizləməni həyata keçirən və Xocalı şəhərində soyqırımı aktı törədən Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycanı sivil normalara və ədəb-ərkana riayət etməməkdə, habelə dözümsüzlükdə ittiham edə biləcək subyektlər sırasında ən sonuncudur.

Üstəlik, Ermənistan XİN-i Azərbaycan hökumətini N.Paşinyanın Xankəndidə Ermənistan, Qarabağ və diaspor üçün "birlik, həmrəylik, inkişaf və tərəqqi" mövzusunda etdiyi çıxışının mahiyyətini və məzmununu başa düşməməkdə inandırmağa çalışır. Bu ölkənin baş nazirinin arxasınca, "nəcib niyyətini" oxşar və yöndəmsiz şəkildə izah edən Ermənistan XİN-i faktiki olaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə münasibətdə rəsmi Ermənistan tərəfindən anneksiya siyasətinin aparıldığını etiraf edir.

Ermənistan tərəfinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin məntiqinə xələl gətirən belə bir qeyri-adekvat yanaşmanı nümayiş etdirməsi regional gərginliyə səbəb olur və bunun məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür. Ermənistan XİN-in başa düşməkdə çətinlik çəkdiyi, Azərbaycan Xarici İşlər Nazirliyinin 6 avqust tarixli və kifayət qədər aydın yazılmış bəyanatında məhz bu sözlər qeyd edilir".

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında, rayonda yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında,** YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışında, "Nərəkənd" balıqyetişdirmə kompleksinin açılışında və yeni inşa olunmuş "Mirvari" Park Kompleksinin açılışında iştirak edib, Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün tikilən yeni yaşayış kompleksində inşa olunan mənzillərdə yaradılan şəraitlə tanış olublar.



# Dağlıq Qarabağla bağlı təhrif olunmuş məlumat NRYTN və Azərbaycanın ABŞ-dakı səfirliyinin təşəbbüsü ilə aradan qalxdı

**Dünyaca məşhur elm və təhsil üzrə qeyri-mənfəət təşkilatlarından olan "National Geographic" Cəmiyyətinin dərc etdiyi və uşaqların məlumatlandırılması məqsədini daşıyan "National Geographic Kids" jurnalının internet səhifəsində ölkəmizlə bağlı təqdim edilən məlumatda Azərbaycan xəritəsində ciddi təhrifə yol verildiyi və ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin fərqli rəngdə təsvir olunduğu müəyyən edilib.**



"Trend"in məlumatına görə, bununla əlaqədar ölkəmizin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyi ilə birgə operativ tədbirlər görmüşdür. Nəticədə Azərbaycan Respublikasının xəritəsinə münasibətdə yol verilmiş təhrifin aradan qaldırılmasına nail olunmuşdur.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycanın ABŞ-dakı səfirliyinin operativ müdaxiləsi nəticəsində adıçəkilən jurnalın internet səhifəsində respublikamızın xəritəsi artıq dəqiq və ərazi bütövlüyü qorunmaqla təsvir edilib.

# Qondarma "DQR"də ümumermәni oyunlarına ən çoxsaylı nümayəndə ABŞ və Rusiyadan gəlib -həmsədr ölkələrdən gözlənilməz siyasət...

**Avqustun 6-sı, saat 21:00-da Azərbaycanın işğal altındakı Xankəndi şəhərində 7-ci ümumerməni oyunlarının planlaşdırılmış açılışı başlayıb. Erməni KİV-inin yaydığı məlumata görə, dünyanın müxtəlif ölkələrinin 145 şəhərindən 5 minə yaxın idmançının qatıldığı açılışda komandaların paradı 1,5 saat davam edib.**



## **Elşən Mustafayev:** *"Həmin yarışda iştirak edən ölkələrin idmançıları sərhədimizi qanunsuz keçməklə cinayət əməli törədiblər"*

Ən çox nümayəndə heyəti həmsədr ölkələrdən - Rusiya (368) və ABŞ-dan (308) gəlib. Yarışlarda 17 idman növü üzrə 105 medal dəsti oynanılacaq.

Qeyd edək ki, bundan əvvəlki ümumerməni oyunları Ermənistanda keçirilib. Ancaq bu il özlərində cəsarət tapan ermənilər həmin yarışı işğal altında saxladıqları torpaqlarda keçirirlər. Maraqlıdır ki, bəzi ölkələr yarışın məhz Azərbaycanın işğal altında olan ərazilərində keçirilməsini əsas gətirərək, orada iştirakdan imtina ediblər. Ancaq diqqət etdikdə görürük ki, nədənsə, yarışa ən çox idmançı göndərən ölkələr ABŞ və Rusiyadır. Bizə ona görə təəccüblü gəlir ki, həmin ölkələr guya münaqişənin sülh yolu ilə həllinə yardım edir və üzərlərində rəsmi vasitəçilik öhdəliyi var. Onda isə həmsədrlərin bu siyasətini necə anlamaq olar?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələyə hansı aspektdən yanaşsaq, qanunsuzluq var: "Əvvəla ümumerməni oyunları adlanan yarışın Azərbaycanın ərazisində keçirilməsi qanunsuzdur. Çünki ümumerməni oyunlarını Azərbaycan ərazisi ilə heç nə bağlamır. İkinci bir tərəfdən, bununla ermənilər qanunsuzluq edib separatçı rejimin təbliğatını qururlar. Onlara elə bu amil kifayət edir. Bilirsiniz ki, istənilən şəxs, hansı sənətin yiyəsi olmasından asılı olmayaraq, Dağlıq Qarabağa səfər edərkən, mütləq mənada, Azərbaycanın rəsmi icazəsini almalıdır. Əks halda, bu addım sərhədləri qanunsuz keçmə cinayəti sayılır. Bununla bağlı Azərbaycanın indiyə kimi atdığı sərt addımlar var. Bir çox elm, sənəd adamı bu prosedura riayət etmədiyi üçün adı bizim XİN-in tərtib etdiyi "qara siyahı"ya düşüb. Hətta bu cür əməlinə görə Lapşin adlı bloger xaricdə həbs edilərək Azərbaycana gətirildi. Bizim dövlətin qanunlarına uyğun şəkildə mühakimə edildi. Yəqin ki, həmin oyunlara dəvət alanlar bu proseduru əzbər bilirlər. Amma görürsünüz ki, riayət etmirlər. Adını qoya bilərlər ki, idmanla siyasəti qatmaq lazım deyil. Yanlış yanaşmadır. Çünki burada söhbət adi idman oyunundan getmir. Məhz separatçılığı təbliğ etdikləri oyunlardan gedir. Həmin yarışda iştirak edən ölkələrin idmançıları Azərbaycanın qanunlarını kobud surətdə pozub, sərhədimizi qanunsuz keçməklə cinayət əməli törədiblər. Maraqlısı isə budur ki, ən çox qanunu pozanlar elə həmsədr ölkələrdir. Görürsünüz ki, onlar yarışda daha çox idmançı ilə təmsil olunurlar. Bu addım onların ikiüzlüyünü göstərir. Sübut olunur ki, onlar üzərlərinə düşən missiyanı yerinə yetirmək əvəzinə, separatizmə açıq dəstək vermiş olurlar. Azərbaycan rəsmi qaydada buna etiraz etməlidir. Əsasən də həmsədrlərin diqqətinə bu qanunsuzluq çatdırılmalıdır. Hətta yeri gəlsə, həmin idmançıların hamısının adını "qara siyahı"ya salmalıyıq. Bu artıq biabırçılığın son həddidir. Necə ola bilir ki, həmsədr olmayan ölkələr yarışda iştirakdan imtina edir, ancaq həmsədr ölkələr sevinə-sevinə ora gedirlər? Belə addımlar onların neytrallıq imicinə ciddi zərbə vurur və silinməz iz buraxır".

## *"Bu addım onların ikiüzlüyünü göstərir"*

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın "Miatsum sərsəmləməsinə" Azərbaycanın rəsmi cavab reaksiyalarında dəqiq məqamlar...

**Ermənistanın Baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ Ermənistandır", "miatsum" kimi sərsəm bəyanatlarla çıxış etməsi Azərbaycanda ciddi rezonans doğurub. Paşinyanın həmin addımına rəsmi dairələr sərt reaksiya verib.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı Ermənistanın işğalçılıq və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünü pozması ilə heç vaxt barışmayacaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək.

Ardınca Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb. Bəyanatda deyilir ki, Ermənistan Baş nazirinin 5 avqust tarixində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanan Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində "ümumerməni oyunları"nın açılışında çıxış edərək, reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir.

Rəsmi reaksiya ilə yanaşı, müstəqil qurumlar, politoloqlar, siyasətçilər də Paşinyanın son addımlarına sərt reaksiya veriblər. Həmin reaksiyaların sırasında hətta Azərbaycanı radikal addımlar atmağa səsləyən də olub. Bu xüsusda tez bir zamanda Azərbaycanın hərbi əməliyyatlara başlamasının, danışıqlar prosesindən çıxmasının zəruri olduğu vurğulanıb. Ancaq Azərbaycanın verdiyi rəsmi reaksiyalardan görünür ki, yeri gəlsə, bütün həmin variantlar da nəzərdən keçirilə bilər. Bu baxımdan da maraqlıdır, Azərbaycanın Paşinyanın son "miatsum" sərsəmləməsinə verdiyi cavabı qənaətbəxş saymaq olarmı?

Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, Azərbaycanın son davranışları çox doğrudur: "Qeyd edim ki, Ermənistanın siyasi səriştəsiz, təhlükəsizlik proseslərində təcrübəsiz, populist Baş naziri və komandası ölkəsində hər keçən gün daha çox nüfuz itirir.




Küçələrdən hakimiyyətə gəlmiş Nikol Paşinyan və komandasının dövlət aparatının idarəçiliyi elə küçədə etirazçı kütlə liderinin idarəçiliyidir. Kütlənin idarə olunmasına yarayan populizm dövlət idarəçiliyinə yaramır. Bu isə, yuxarıda qeyd etdiyim kimi, Paşinyana hər keçən gün daha çox nüfuz itkisi gətirir. Sosioloji araşdırmalar və sorğuların nəticəsi belədir ki, inqilabın əvvəlində Paşinyanın arxasınca gedən kütlə belə xəyal qırıqlığına uğrayıb və artıq sıravi erməni vətəndaşa aydındır ki, ölkəni səriştəsiz və boşboğaz bir Baş nazir idarə edir.

Belə olan halda, Paşinyan və komandasının, özündən əvvəlki sələflərinin də hər çətinliyə düşərkən istifadə etdikləri köhnə manevrə, Azərbaycanla müharibə mövzusuna əl atır".

Ekspert hesab edir ki, birmənalı olaraq qeyd etmək lazımdır ki, hazırda Azərbaycanla müharibə bütün risqlərə rəğmən, Nikol Paşinyan üçün komandasını və daxili auditoriyanı sakitləşdirmək və gözünü qorxutmaq üçün arzu etdiyi bir məqamdır: "Bununla Baş nazir cəmiyyətdəki, komandadaxili etirazları sakitləşdirmək və beynəlxalq ictimaiyyəti fakt qarşısında qoymaq məqsədini güdür: "Bu üç - cəmiyyət, hakim komanda və beynəlxalq ictimaiyyət məqamından sonuncu ikisinin üzərində xüsusi dayanmaq istəyirəm.

Birincisi, hakim komanda - İnqilab sonrası formalaşdırdığı komandasında çoxluğun təmsilçiliyi və bu qruplar arasında balans manevri üzərində uzunmüddətli plan quran Paşinyanın son aylar komandasında balansa nəzarət edə bilməməsi sezilir. Qrup daxilində Baş nazirin həyat yoldaşının komandası adlandırılan qərbpərəst, Soros uşaqlarının oliqarxiya və rusiyayönümlü qüvvələrlə biznes mövqe və maraqlar üzərindən mübarizəsi aydın sezilməkdədir. Bu qrupdaxili gərginliyin aradan qaldırılması üçün bir neçə günlük müharibə Paşinyana müvazinətini saxlamağa kömək edəcək.

Beynəlxalq ictimaiyyət adlandırdığımız qrup üçün isə Qərb ölkələri, USAİD, OSCE, Avropa Birliyi, ŞT və s. kimi təşkilatlarda son illər aktiv, Paşinyan hökuməti ilə isə astronomik sürətlə mövqe itirən Ermənistan üçün bu təşkilatlarda Azərbaycanın bu uğurlu fəaliyyətinin dayandırılması üçün şantaj məqsədli müharibə göydəndüşmə bir məqam olacaq və bu üzdən Paşinyan torpaq itkiləri hesabına olsa belə, müharibə etməkdə maraqlıdır. Məsələn, keçən il may ayının 20-28-i tarixlərində Naxçıvanın Günnüt ərazilərində Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən döyüşləri və s. xatırlatmaq kifayətdir.

Gəlirik Azərbaycanın reaksiyası, daxili müharibə çağırışları və bunu edən dairələrin məqsədləri və s. Öncəliklə Paşinyanın sərsəmləmələrinə Azərbaycan hökuməti ən yüksək səviyyədə cavab verir və bu proses davam edir. Azərbaycan XİN-i və Prezident Administrasiyasının Xarici məsələlər üzrə şöbəsi Azərbaycan Prezidentinin və hökumətinin Dağlıq Qarabağ konfliktinin həlli strategiyasına uyğun olaraq mövqe sərgiləyirlər. Bu proses beynəlxalq hüquqa, ərazi bütövlüyümüzün bərpası və milli maraqlara uyğun olaraq, sistemli şəkildə regiondaxili digər siyasi, iqtisadi təhlükəsizlik maraqlarının müşayiətilə diplomatik riçaqlarla həll mərhələsindədir. Bu o demək deyil ki, Azərbaycan prosesi ancaq diplomatik rıçaqlarla davam etməkdə maraqlıdır. Azərbaycanın konfliktin hərbi yolla həlli seçimi mövcuddur, bunun üçün onun hərbi potensialı və siyasi nüfuzu kifayət edir. 2016, 2018-ci illərdə olduğu kimi, Ermənistanin daxili auditoriyasını sakitləşdirmək üçün atdığı təxribatlara Azərbaycan Ordusunun qətiyyətli cavabı buna nümunədir.

Gəlirik Azərbayandaxili müxalif siyasi və radikal qrupların, hibrid alətlər kimi tanıdığımız müxalif səhifələr və ya xarici kəşfiyyatlara bağlılığı şübhə doğurmayan blogerlərin bu mövzu ətrafında spekulyasiyası mövzusuna. 2016-cı ildə erməni mediasının xəbərlərini tirajlayan, Cocuq Mərcanlı və Günnüt əməliyyatlarının uğuruna şübhə salmağa çalışan qüvvələrin Paşinyanın sərsəmləmələrinin ətrafındakı psevdovətənpərvərliyi anlaşılandır. Xüsusilə 90-cı illərdə sərhəddə müharibə zamanı öz hakimiyyətini qorumaq üçün ordunu sərhəddən ölkənin digər hissələrinə çəkən hökumətdə təmsil olunan müxalifətçilərin bu mövzuda canfəşanlığı səmimi deyil. Paşinyan və ya digər erməni hökumətləri bu qüvvələrin hakimiyyəti dövründə Dağlıq Qarabağda möhkəmlənmiş və işğal siyasətini uğurla yürütmüşlər. Azərbaycan cəmiyyəti də, biz də bu "psevdopatriot" və "psevdoqəhrəmanların" "şücaətinə" bələdik".

***Məhəmmədəli QƏRİBLİ***

**Cəmiyyətin elə təbəqələri var ki, onların atdığı hər bir addım, danışdığı hər bir kəlmə ildırım sürətilə yayılır və dərhal da müzakirə obyektinə çevrilir. Daşıdığı statusa görə gündəmdə olan insanların hamısı bu qəbildəndir. Son zamanlar bəzi deputatlar arasında gərginliklər, qalmaqallar yaşanır.**

***Elçin Mirzəbəyli:** "Biz münasibət bildirənlərin hansı seçki dairəsində səs verdiyini bilmirik"*

***Əli Orucov:** "...həmin deputatların seçicilərinin münasibət bildirməməsi onların laqeydliyi ilə bağlıdır"*

# Deputatların arasında "zoğal söhbətlərinə" dairə seçicilərindən heç bir reaksiya gəlmədi... Səbəb...





Bu gərginliklər də sözsüz ki, tez bir zamanda sosial şəbəkələrə yayılır və burada böyük auditoriya tərəfindən geniş şəkildə müzakirə edilir. Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın görkəmli dövlət xadimi Şah İsmayıl Xətainin adına olan medalın ləğv edilməsi barədə çağırışından sonra yaranan qalmaqal səngimək bilmir. F.Mustafanın çağırışı həmkarlarının da ciddi narazılığına səbəb olub. Belə ki, onun fikirlərinə Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı və Milli Dirçəliş Partiyasının sədri, millət vəkili Fərəc Quliyev ciddi narazılıq bildiriblər. Deputatlar arasında yaranan gərginlik qarşılıqlı ittihamlarla müşayiət olunur. Deputatlar həmkarlarını tarixi bilməməkdə və Azərbaycan dövlətçiliyinin qurucularından olan Şah İsmayıl Xətainin ruhunu təhqir etməkdə ittiham edirlər. F.Ağamalı hesab edir ki, Şah İsmayıl Xətainin üzərinə bu şəkildə getmək Azərbaycan tarixini, özü də şərəfli tarixini təhqir etmək deməkdir.

Bir neçə gündür millət vəkilləri arasında yaşanan və sosial şəbəkələrdə də davam edən mübahisələrə, qarşılıqlı ittihamlara həmin millət vəkillərinin deputat seçildikləri dairələrin seçiciləri tərəfindən heç bir reaksiya verilmir. Bu gün vətəndaşlarımızın 80 faizdən çoxunun sosial şəbəkə istifadəçisi olduğu məlumdur. Heç şübhəsiz ki, F.Mustafanın da, F.Quliyevin də, F.Ağamalının da seçiciləri sosial şəbəkələrdən istifadə edirlər. Lakin seçicilər nə fərdi, nə kollektiv şəkildə millət vəkili seçdikləri deputatların davranışlarına, çıxışlarına heç bir reaksiya vermirlər. Seçicilərin deputatlar arasında yaranan gərginliyə münasibət bildirməməsinin özü qəribə görünür. Halbuki, bu müzkirələrdə onların iştirakı, rəy və fikir bildirməsi, millət vəkilini müdafiə, yaxud tənqid etməsi, ən azından, arzuediləndir.

Həmin millət vəkillərinin deputat seçildikləri dairələrin seçiciləri onlar arasında yaşanan qalmaqallara, gərginliklərə laqeyd yanaşırlar, buna hansı səbəbdən reaksiya vermirlər?

AMİP təmsilçisi, tanınmış politoloq Əli Orucov "Bakı-Xəbər"ə bildirdi ki, adları çəkilən millət vəkilləri arasında yaşanan gərginlik artıq xoşagəlməz səviyyəyə çatıb. "Olduqca maraqlı mövzuya toxunmusunuz. Əvvəla onu deyim ki, Fazil Mustafa və Fəzail Ağamalı arasında yaşanan gərginliklər, qarşılıqlı ittihamlar xoşagəlməz səviyyəyə çatıb. Cəmiyyətdə kifayət qədər problemlər olmasına, Dağlıq Qarabağ problemini yaşamağımıza baxmayaraq, onlar bu cür qalmaqallar yaradırlar. Seçicilərə gəlincə, deyim ki, onlarda doğrudan da laqeydlik müşahidə edildi. Amma belə bir hadisə Türkiyədə yaşansaydı, biz tamam başqa bir mənzərənin şahidi olardıq. Çünki orada seçicilər, ictimaiyyət nümayəndələri dövlət atributlarına, tarixi şəxsiyyətlərə, dövlətçilik dəyərlərinə daha həssas yanaşırlar və dəyərlərə əl uzadanlara qarşı sərt təpki göstərirlər. Təəssüf ki, bizim cəmiyyətdə belə həssas məsələlərə reaksiya zəifdir. Doğrudur, az da olsa, biz burada fəallıq gördük, amma bu da yetərincə deyil. Deputatlar arasında yaşanan gərginliklərlə bağlı sosial şəbəkələrdə yaşanan polemikalara həmin deputatların seçicilərinin münasibət bildirməməsi onların laqeydliyi ilə bağlıdır. Hamı gözləyir ki, mən deyib pis olunca başqası deyib pis olsun" - deyə Ə.Orucov bildirdi.

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəylinin sözlərinə görə isə deputatlar arasında yaşanan və artıq geniş miqyas alan qalmaqallara ola bilməz ki, sosial şəbəkələrdə seçicilər fərdi və kollektiv şəkildə hər hansı bir reaksiya verməsin. "Əslində, seçicilər xüsusi olaraq Fazil bəyin bu və ya digər açıqlamasına görə təşkilatlanmayıblar ki, bu məsələ ilə bağlı kiməsə müraciət edib mövqelərini bildirsinlər. Adlarını çəkdiyiniz şəxslərin hamısı partiya sədrləridir, eyni zamanda da millət vəkilləridir. Onlar təşkilat adından çıxış edə bilərlər. Yaxud peşəkar tarixçilər, prosesləri yaxşı bilənlər bu məsələyə münasibət bildirə bilərlər. Ancaq seçicilərin xüsusi olaraq toplanıb nəyəsə reaksiya verməsi məsələsinə gəlincə, yəqin ki, seçicilər fərdi şəkildə bu məsələyə sosial şəbəkələrdə münasibət bildiriblər. Biz münasibət bildirənlərin hansı seçki dairəsində səs verdiyini bilmirik. Hesab edirəm ki, seçicilərin bu məsələyə münasibəti var. Çünki bu məsələ ilə bağlı çoxsaylı insan öz mövqeyini bildirib, onlar arasında həmin millət vəkillərinin seçicilərinin də olduğu şübhə doğurmur" - deyə E.Mirzəbəyli qeyd etdi.

E.Mirzəbəylinin sözlərinə görə, F.Mustafanın çıxışına ictimaiyyətin müxtəlif sferaları tərəfindən kifayət qədər sərt reaksiya verilib.

***İradə SARIYEVA***



# Türkiyənin hərbi əməliyyat mesajı Qərbi hərəkətə gətirdi - terrorçulara göndərilən yeni silahlar İraqdan Suriyaya keçirildi

**Başda ABŞ olmaqla Qərb ölkələri, Türkiyənin Fəratın şərqinə girəcəyini açıqlamasından sonra kürd YPG-yə silah yardımına başlayıb.**

Baki-xeber.com Sputnik-ə istinadən xəbər verir ki, Suriya dövlət xəbər agentliyi SANA ABŞ-ın İraqdan, Suriyanın Haseke əyalətindəki Qamışlı şəhərinə silah və sursatla dolu onlarla avtomobil göndərdiyini yazıb.

Xəbərdə yüklərin İraqın şimal hissəsində Simalka adlı keçiddən Qamışlı şəhərinə keçdiyi bildirilir. Silahların terror təşkilatı YPG/PKK liderlik etdiyi DSQ-yə dəstək məqsədilə göndərildiyi deyilir.

Beynəlxalq koalisiya qüvvələrinin, böyük miqdarda silah və sursat daşıyan 200 böyük yük maşınını Qamışlı şəhərinə keçirdiyi bildirilir.

Avqustun 3-də ABŞ, terror təşkilatı YPG-nin başçılıq etdiyi Suriya Demokratik Qüvvələrini dəstəkləmək üçün yenidən silah sursat göndərmişdi. Suriyanın şimalından daxil olduğu bildirilən 300 avtomobildən ibarət karvana yük maşını və yanacaq tankerlərinin daxil olduğu bildirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Paşinyanın mitinq sərsəmləmələri Ermənistana qarşı dünyanın fikrini ümumən tam dəyişdi...

**Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndidə etdiyi məlum çıxış bir çox parametrlər baxımından xüsusi diqqət cəlb edir. Əvvəla, Nikol Paşinyanın səsləndirdiyi fikirlər bir daha İrəvanın sülh prosesində maraqlı tərəf olmadığını meydana qoyur. İkinci bir tərəfdən, onun "Qarabağ Ermənistandır" deyə səsləndirdiyi fikir Ermənistanın işğalçılıq siyasətinin açıq etirafı sayılır.**

Çünki Azərbaycanın beynəlxalq hüquq və dünya ictimaiyyəti tərəfindən tanınan suveren ərazisi sayılan Dağlıq Qarabağın Ermənistana aid olduğunu bəyan etməsi faktiki İrəvanın işğalçılıq siyasətinin ifşası deməkdir. Bununla Nikol Paşinyan Ermənistanın təcavüzkar olduğunu açıq bəyan etdi. Artıq rəsmi Bakı qeyd edilən məqam fonunda Ermənistana qarşı yeni diplomatik hücumlar edir və baş verənləri İrəvanın özündə belə Paşinyanın naşılığı kimi qiymətləndirənlər də tapılır.

Xatırladaq ki, indiyə qədər heç bir erməni lider Qarabağın Ermənistanın olduğunu dilə gətirməyib, çünki bu, Azərbaycan torpaqlarının işğal edildiyini açıq şəkildə etiraf etməkdir. Bununla Ermənistanın illərdir irəli sürdüyü "Qarabağın ayrıca respublika olması" tezisi də alt-üst olub və belə vəziyyət danışıqlar masasında rəsmi Bakının əlini gücləndirir. İndi növbə beynəlxalq ictimaiyyətin, xüsusilə münaqişənin həlli ilə bağlı aparılan danışıqlardan məsul olan ATƏT-in Minsk Qrupu həmsədrlərindədir. Onlar erməni baş nazirin bu etirafına reaksiya verməli və danışıqların növbəti raundunda işğala son qoymaq istiqamətində fəal işləməlidirlər. Əks təqdirdə məsələyə Azərbaycan ordusunun reaksiya verməsi qaçılmaz sayılır. Elə "Bir Ermənistan" partiyasının qurucusu Artur Qazinyan da baş verənləri Paşinyanın yanlış siyasi gedişləri kimi qələmə verir. Onun sözlərinə görə, Paşinyan yaxşı siyasətçi olsaydı, indi Ermənistan və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı durum tamam başqa cür olardı: "Nikol Paşinyan hələ də xəyalllarla reallıqları ayıra bilmir. Məsələn, o, rus-gürcü münaqişəsini həll etməyə və Abxaziya dəmir yolunu yenidən açmağa hazırlaşır. Bəs, Rusiya və Gürcüstan demək olar həll olunmamış konfliktin tezliklə həll olunacağından xəbərdardırlar? Yaxşı, gəlin danışmayaq, sürprizi korlamayaq. Bəlkə Paşinyan öz düşüncəsində Qarabağ münaqişəsini həll edib, Türkiyə ilə sərhədi açıb, Culfa dəmiryol xəttini işə salıb? Bir sözlə, Nikol Paşinyanın işləri müzakirəedilməzdir və baş nazir hələ də xəyallara qapılır. Amma bunlar Ermənistanı uçuruma aparır və Qarabağ məsələsində çıxılmaz vəziyyətə salır". Rusiyalı ekspert Aleksey Fenenko da məsələyə eyni prizmadan yanaşır. Ekspert qeyd edir ki, Nikol Paşinyanın Xankəndidə mitinq keçirməsi və səsləndirdiyi şüarların üç hədəfi var. Onun sözlərinə görə, Paşinyan bu fikirlərlə "Qarabağ klanı"nın bir hissəsini öz tərəfinə çəkmək istəyir:"Bu birinci hədəfdir. Çünki Qarabağda onun nüfuzu azdır, əksinə, "Qarabağ klanı"nın nüfuzu çoxdur və Paşinyan bunu parçalamaq istəyir. İkinci hədəf millətçiləri öz tərəfinə çəkməkdir. Ermənistanda son 15 ildə ciddi radikallaşma gedib. Onlar Ağrı dağını, yaxud Cavaxetiyanı ələ keçirmək haqda danışırlar, erməni baş nazir də bu çıxışları ilə millətçilərin dəstəyini qazanmağa çalışır. Üçüncü hədəf Paşinyan davakar bəyanatları ilə Qərbdən dəstək almaq istəyir. Çünki son zamanlar ABŞ-da, Fransada, yaxud Almaniyada Qarabağ məsələsinin sülh yolu ilə həll olunmamasına çalışan təşkilatlar aktivləşib". Amma ekspert bildirir ki, Paşinyanın məlum mövqeyi Ermənistanın təcavüzkar siyasətinin də etirafı sayılır və Azərbaycanın bundan məharətlə istifadə edəcəyi də şübhə doğurmur. Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı da təsdiq edir.

Nazirlik vurğulayır ki, Ermənistan baş nazirinin aqressiv bəyanatları Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir: "Bu, həmçinin, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı elə Ermənistanın özünün səsləndirdiyi, "münaqişənin yalnız sülh yolu ilə həlli" çağırışına uyğun gəlmir. Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu". O da qeyd olunur ki, Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması, öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək. Bildirilir ki, münaqişənin sülh yolu ilə həllinə vurulan zərbənin və beləliklə də yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan üzərindədir. Beləliklə, bu açıqlamadan aydın görünür ki, Azərbaycan qarşıdakı dövr ərzində iki istiqamətdə Qarabağ məsələsi ilə bağlı mövqeyini daha da gücləndirəcək. Bunlardan birincisi Paşinyanın etirafları fonunda Ermənistanın işğalçılıq siyasətinin diplomatik müstəvidə faş edilməsi istiqamətində işlərin miqyasının genişləndirilməsidir. Digər məqam isə sülh yolu ilə məsələnin həllindən qaçan Ermənitstanın yola gətirilməsi üçün hərbi gücdən istifadədir. Çünki Ermənistan rəhbərliyinin mövqeyi buna lazımi şərait yaradır və qeyd olunduğu kimi, bütün məsuliyyət də məhz Ermənistanın üzərindədir.

Amerikalı politoloq Piter Teys də vurğulayır ki, Nikol Paşinyanın Dağlıq Qarabağa baş çəkməsi və səsləndirdiyi fikirlər sırf təxribat mahiyyəti daşıyaraq beynəlxalq hüquq normalarının tapdalanması deməkdir. Paşinyanın bu addımını "Ermənistanın faşist rəhbərliyi" tərəfindən Azərbaycana qarşı aparılan psixoloji müharibənin bir hissəsi olaraq dəyərləndirən ekspert Ermənistan hökuməti başçısının bununla beynəlxalq birliyi də, erməni xalqının üzləşdiyi iqtisadi və sosial problemləri də qulaqardına vurduğu qənaətindədir: "Gördüyümə görə, Ermənistan diplomatiyası ilə Azərbaycan xalqının doğma yurd-yuvalarına, Ermənistan hərbi qüvvələrindən azad olunaraq doğma torpaqlarına qayıtmaq arzusuna məhəl qoymayaraq hazırkı status-kvonu saxlamaq üçün əlindən gələni edir. Beynəlxalq birlik baş verənlərə müvafiq qiymət vermədikcə Azərbaycan torpaqları da Ermənistan hərbi qüvvələri tərəfindən işğal altında saxlanır. Azərbaycanın suveren torpaqlarına Ermənistanın ordu yeritməsi dünya tarixinin ən azğın əməllərindən biridir".

Məsələyə beynəlxalq müstəvidə verilən bu qiymət fonunda, əslində Paşinyanın ciddi yanlışlığının Ermənistana baha başa gəlməsi də tamamilə gözləniləndir. Elə bu səbəbdən Ermənistan XİN diqqəti başqa səmtə yönəldərək, baş nazirin dediklərinə uğursuz izah verməyə çalışıb. Belə ki, Paşinyanın Xankəndidəki mitinqdə Azərbaycan torpaqlarına qarşı iddialı çıxışını Ermənistan diplomatiyası ört-basdır etməyə səy göstərib. Guya Azərbaycan tərəfi Ermənistan baş nazirinin dediklərini "kontekstdən çıxarıb". Lakin nazirlik məsələnin mahiyyətini gizlətməyə səy edərkən daha bir səhv buraxıb. O, Paşinyanın dediyini təkzib etməyib. Əksinə, bu yanlışlığa don geyindirib, beynəlxalq ictimaiyyətə sırımağa cəhd göstərməklə özünü daha gülünc vəziyyətə salıb. Nazirlik gəlişi gözəl sözlərlə mövcud vəziyyəti təhrif edərək, işğal faktı, Azərbaycanın ərazi bütövlüyünün pozulmasını və beynəlxalq hüququ tapdaladıqlarını örtbasdır etməyə çalışsa da buna nail ola bilməyib. Məsələni bu rakursdan şərh edən erməni ekspert Qrant Məlik Şahnazaryan bildirir ki, Azərbaycan Paşinyanın Qarabağdakı fikirlərindən Ermənistana qarşı istifadə edəcək. Onun sözlərinə görə, Azərbaycan tərəfi Paşinyanın fikirlərini Ermənistanın danışıqlar prosesini bitirməsi kimi təqdim edəcək və bununla İrəvanı ittiham edəcəyindən şübhə etmək lazım deyil: "Azərbaycan beynəlxalq platformalarda, xüsusilə Minsk Qrupunda bu bəyanatlardan istifadə edəcək. Burada ola biləcək təzyiqlər yox, bu bəyanatların məsuliyyətsizliyi narahatlıq doğurur. Paşinyanın indiki bəyanatları onun Dağlıq Qarabağın danışıqlarda tərəf olması tezisinə ziddir. O, əvvəlcə belə bir tezis irəli sürür, daha sonra heç bir izahat vermədən tam əksini səsləndirir".

Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov da məsələyə maraqlı prizmadan yanaşır və qeyd edir ki, Paşinyan ölkəsini çıxılmaz vəziyyətə salıb. Eyni zamanda o, beynəlxalq ictimaiyytin gözü qarşısında müharibəni tətikləyir: "Paşinyanın Xankəndidə dedikləri çox vacib bəyanatdır və hesab edirəm ki, bununla danışıqlar prosesi çox kobud şəkildə pozulub, artıq danışıqlar üçün heç bir əsas qalmayıb. Təəssüf ki, Ermənistan rəhbərliyi öz siyasəti ilə iki ölkəni müharibəyə aparır. İndi müharibənin heç bir alternativi yoxdur, çünki Azərbaycan dövləti və ictimaiyyəti çoxdan başa düşüb ki, Ermənistan tərəfi danışıqlar yolu ilə torpaqları qaytarmaq niyyətində deyil.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, Ermənistanın xaricdə olan havadarları da artıq danışıqların imitasiyasını bundan sonra apara bilməyəcəklər. Biz çoxdan bu prosesə inanmırdıq. Artıq nəinki danışıqların özünə, hətta onların imitasiyasına belə əsas yoxdur". Bütün bunlar bir daha təsdiq edir ki, erməni baş nazirin son mövqeyi ilk növbədə Ermənistanın özünə ciddi zərbə olub. Belə vəziyyətdə Azərbaycanın Ermənistanı həm hərbi, həm də diplomatik müstəvidə daha böyük təzyiq altına salacağı da şübhəsizdir. Bu isə, öz növbəsində, Qarabağ münaqişəsinin gedişinə ciddi surətdə təsir göstərmək iqtidarındadır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan torpaqlarında ermənilərin həyata keçirdiyi qanunsuz əməllərin sayı bitib-tükənmir. Düşmən ölkə bütün beynəlxalq konvensiyaların şərtlərini, eləcə də beynəlxalq idman təşkilatlarının tələblərini pozaraq Azərbaycanın tarixi torpaqlarında müxtəlif idman yarışları, turnirlər, futbol çempionatları keçirir.**

# "Ümumermənі oyunları" oyunu Ermənistanın regional təcridini bir az da qatılaşdırdı - üç ölkə...

## Sədrəddin Soltan: "Onların atdığı addım Azərbaycanın məsələyə münasibətinə uyğun olduğu üçün alqışlana bilər"



*"İranın hazırkı vəziyyəti Azərbaycanla münasibətləri pozmamağı diktə edir"*

Ermənistan sayca 7-ci olan ümumerməni yay oyunlarını Dağlıq Qarabağda, Xankəndidə keçirməklə növbəti dəfə qanunsuzluğa yol verib.

Xaricdəki erməni lobbisinin saxtakar təbliğatına uyaraq bir sıra Avropa dövlətlərinin, eləcə də ABŞ-ın idmançıları ümumerməni oyunlarına qatılsalar da, Türkiyə, Gürcüstan və İran rəsmi olaraq öz idmançılarının sözügedən oyunlarda iştirakına qadağa qoyub. Bu da onu göstərir ki, hər üç dövlət regionda sülhün, sabitliyin qənimi olan Ermənistanın Dağlıq Qarabağda keçirdiyi ümumerməni yay oyunlarını boykot edib. Heç şübhəsiz ki, bu da Gürcüstan, Türkiyə və İranın Ermənistanı bu məsələdə meydanda tək qoyması anlamına gəlir. Fakt budur ki, Ermənistan bölgədə təklənib və adıçəkilən dövlətlər ona bu yarışda heç bir dəstək vermir. Məlumdur ki, həm Türkiyənin, həm Gürcüstanın, həm də İranın yarışı boykot etməsinin səbəbi birbaşa oyunların işğal altında olan Azərbaycan torpaqlarında keçirilməsi ilə bağlıdır. Bu dövlətlər rəsmi şəkildə bəyan ediblər ki, oyunlar Ermənistanın işğal altında saxladığı Azərbaycan torpağında keçirildiyi üçün ora öz idmançılarını buraxmayıblar.

Siyasi şərhçilər qeyd edirlər ki, üç dövlətin ümumerməni oyunlarını boykot etməsi artıq bölgə dövlətlərinin Ermənistanın işğalçılıq siyasətinə qarşı çıxması anlamına gəlir. Ekspertlər bildirirlər ki, İran, Türkiyə və Gürcüstanın belə bir addım atması konkret olaraq Ermənistanın bölgədə təkləndiyini göstərir.

Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri Sədrəddin Soltan "Bakı-Xəbər"ə bildirdi ki, üç dövlətin Ermənistanın qanunsuz olaraq Dağlıq Qarabağda, Xankəndidə keçirdiyi ümumerməni yay oyunlarını boykot etməsi çox müsbət haldır. "Türkiyənin Ermənistana münasibəti bəllidir. Bu baxımdan Türkiyənin Xankəndidə keçirilən tədbirə də yanaşmasının dəyişməməsi məntiqlidir. Gürcüstan isə ərazi bütövlüyü pozulan, işğala məruz qalan bir ölkədir.

*"Türkiyənin Xankəndidə keçirilən tədbirə də yanaşmasının dəyişməməsi məntiqlidir"*

Rəsmi Tiflis işğal altında olan Gürcüstan torpaqlarında keçirilmiş idman yarışları və başqa tədbirləri həmişə pisləyib, bunu suveren hüququnun pozulması kimi qiymətləndirib. Ona görə də Gürcüstanın bu addımı daha çox öz vəziyyətinin göstəricisidir. İran əvvəllər ermənilərin bu tədbirinə evsahibliyi edib. Həmişə də Güney Azərbaycan türkləri və rəsmi Bakı tərəfindən qınanılıb. İranın hazırkı vəziyyəti Azərbaycanla münasibətləri pozmamağı diktə edir. Odur ki, rəsmi Tehran ermənilərin qanunsuz bir tədbirinə görə özünə əlavə problem yaşatmaq istəmir. Bundan başqa, işğal altında olan Xankəndidə keçirilən tədbirdə İran və Gürcüstandan olan ermənilərin birmənalı şəkildə iştirak etmədiyinə də heç təminat verə bilməz. Odur ki, İran və Gürcüstan bu tədbirə qatılmamaqla Azərbaycana minnət edə bilməz. Ancaq onların atdığı addım Azərbaycanın məsələyə münasibətinə uyğun olduğu üçün alqışlana bilər" - deyə S.Soltan vurğuladı.

*İradə SARIYEVA*

---

**ABŞ-la Türkiyə Suriyanın şimalında təhlükəsizlik zonası yaradılması ilə bağlı razılığa gələ bilmir. Türkiyənin artıq sözügedən bölgələrdə PKK-nın Suriya qanadı saydığı PYD/YPG-yə qarşı hərbi əməliyyatlara başlayacağı qaçılmaz görünür.**

# Rusiyalı ekspert Türkiyənin ehtimal edilən yeni Suriya əməliyyatına qarşı ABŞ-ın planını deşifrə etdi...



Baki-xeber.com xəbər verir ki, Ankaradan əməliyyatların çox yaxında başlayacağı mesajları verilir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin çox yaxın vaxtda Suriyanın şimalında hərbi əməliyyatlara başlayacağını bir daha təkrarlayıb. "Bu gün Türkiyə Suriyanın şimalında əməliyyatlara başlamasa, o zaman gələcəkdə daha ağır bədəl ödəyəcək. Suriyanın şimalında terror bataqlığını qurutmaq ölkəmizin ən önəmli məsələlərindən biridir. "Fərat Qalxanı" və "Zeytun Budağı" ilə başlatdığımız sülh prosesi inşallah çox yaxında fərqli bir səviyyəyə keçəcək. Türkiyənin təhlükəsizliyi NATO-nun və bütün bölgəmizin təhlükəsizliyi deməkdir", - Ərdoğan qeyd edib.

Ərdoğanın bu açıqlamasından əvvəl isə Pentaqon rəhbəri bəyan edib ki, ABŞ bölgədəki müttəfiqi olan, əsasən kürdlərdən ibarət "Demokratik Suriya Qüvvələri"nə hücumun qarşısını alacaq. Türkiyənin Suriyanın şimalında əməliyyat keçirməsinin qəbuledilməz olduğunu deyən ABŞ-ın Müdafiə naziri Mark Esper bildirib: "Birləşmiş Ştatlar Suriyanın şimalında qarşılıqlı maraqları təkrarən alt-üst edəcək birtərəfli hücumların qarşısını alacaq. Ankara ilə razılaşma əldə edəcəyimizə ümidliyəm".

Türkiyə sərhəd boyu Suriya ərazisində 32 km enində təhlükəsizlik zolağının yaradılmasını istəyir, ABŞ isə son müzakirələrdə zolağın eninin 15 km olmasını təklif edib. Ankara bununla razılaşmır, çünki kürd PYD-nin nəzarətində olan Türkiyə üçün təhlükə yaradan əsas bölgələr ABŞ-ın təklif etdiyi 15 km-lik zolaqdan kənarda qalır. Yəni ABŞ PYD-ni sərhəddən çox da uzaqlaşdırmaq istəmir, Ankara isə bunu israrla tələb edir və belə olmadığı halda bölgədə hərbi əməliyyat keçirəcəyinə dair bəyanatlar verir ki, bu da iki NATO ölkəsi arasında gərginliyi artırır.

Digər tərəfdən Türkiyənin hədəfində olan bölgələrdə böyük neft yataqları mövcuddur ki, bu gün həmin yataqları ABŞ-ın dəstəklədiyi kürd silahlı qrupları istismar edir və təbii ki, ABŞ-ın da payı var. Ən azından PYD-nin əldə etdiyi neft qazancının böyük bir qismi silah qarşılığında ABŞ-a verilir. Bütün bunlara görə ABŞ-ın Türkiyənin hərbi müdaxiləsinə qarşı çıxması təbiidir.

Bununla belə Türkiyənin hədəfində olan sözügedən bölgədə amerikalı əsgərlərin də mövcudluğu hərbi əməliyyatların başlayıb-başlamayacağını sual altına alır. Ancaq bütün hallarda Türkiyə təhlükəsizlik zonası yaradılması məsələsində israrlıdır - danışıqlarla, ya da hərbi yolla...

Pentaqon rəhbərinin "Türkiyənin birtərəfli hücumlarının qarşısını alacağıq" bəyanatından sonra Türkiyə hərbi əməliyyatlara başlayacağı halda ABŞ-ın hansı addımlar atacağı sualı ortaya çıxır. Rusiyanın "Sputnik" xəbər agentliyi yazır ki, ABŞ Türkiyənin qarşısını almaq üçün əlindən gələni edəcək. Saytа açıqlama verən rusiyalı ekspert Yevseyev iddia edir ki, ABŞ xüsusilə Türkiyənin hərbi hava qüvvələrindən yararlanmasına mane olmağa çalışacaq.

"Əsas məsələ budur ki, ABŞ-ın bu bölgələrdə marağı var. Onlar Suriyadan çıxmaq niyyətində deyil. Sadəcə "gedirik" bəyanatları ilə Böyük Britaniya və Fransanı bölgəyə çəkməyə çalışırlar" - ekspert bildirib.

Ekspertin fikrincə, ABŞ Türkiyənin hücumunun qarşısını almağa çalışacaq, ancaq ordunun artileriya hücumunun qarşısını ala bilməyəcək: "Buna görə də DSQ silahlılarını Deyr əz-Zordan geri çəkə bilər. ABŞ Türkiyə ilə münasibətləri tam pozmaq istəmir, onsuz da münasibətlər yaxşı deyil. Eyni zamanda DSQ-ni də əlindən buraxmaq istəmir. Çünki bu ABŞ-ın bölgədə dəstəksiz qalacağı və Suriyada təsirini itirəcəyi demək olar.

Artilleriya hücumları, xüsusi qrupların bu bölgədə əməliyyatları ola bilər, çünki bu bölgədən Türkiyəyə təhdidlər davam edir".

*TAHİR*

**Ermənistanın baş naziri Nikol Paşinyanın zəbt edilmiş Azərbaycan ərazilərinə son səfəri və burada yaşananlar onunla separatçı rejim arasında ziddiyyətlərin daha da kəskinləşməkdə olduğunu üzə çıxardı. Ermənistanın "times.am" nəşri yazır ki, təkcə Ermənistanda yox, həm də Qarabağda insanların Paşinyana olan etibarı nifrətlə əvəzlənib və bu nifrətin dozası gündən-günə artmaqdadır:**

# Paşinyanın mitinqi Qarabağ separatçıları ilə İrəvan arasında ziddiyyətləri dərinləşdirir

"Məsələn, Xankəndidə iştirakçılar mitinq müddətində müxtəlif replikalar səsləndirirdilər. Məsələ o yerə çatdı ki, mitinqin digər iştirakçıları onlarla mübahisə etdi, sonda isə vəziyyətin daha da ağırlaşmaması üçün Ermənistan Milli Təhlükəsizlik Xidmətini rəhbəri Artur Vanetsyan mövzuya müdaxilə etdi. Yeri gəlmişkən, Paşinyan və Saakyan səhnəyə qalxanda Samvel Babayanın tərəfdarları "Babayan, Babayan" şüarları səsləndirməyə başladılar. Bununla da Paşinyana etiraz ifadə olundu".

Xatırladaq ki, separatçı rejimin keçmiş "müdafiə naziri" Samvel Babayan Qarabağda "prezident" olmaq üçün namizədliyini verməyə hazırlaşır. Amma Paşinyan bura da öz adamını gətirmək istəyir. Bu fonda Rusiyanın "regnum.ru" portalı yazır ki, Paşinyanla separatçılar arasında ziddiyyət sürətlə dərinləşir: "Biz Ermənistan baş naziri Nikol Paşinyanın Xankəndidə baş tutan mitinqdəki çıxışı ilə diqqətlə tanış olduq. Hər şeydən əvvəl, Ermənistan kütləvi informasiya vasitələrinin baş nazirin təkcə mənə ismarıclarını deyil, həm də dinləyiciləri bu və ya digər müddəanın düzgünlüyünə inandırmaq qəsdilə bunun yaratdığı siyasi əhvali-ruhiyyəni nə qədər doğru işıqlandırdığına əmin olmaqdan ötrü. Paşinyanın məhz Xankəndidə ictimai çıxışa nə məqsədlə getdiyini müəyyən etmək önəmli idi. Onun çıxışı zahirən mərasim-protokol xarakteri daşımalı idi, axı bu hansısa tədbirin açılışına bağlı idi və yorucu olmamalı idi. Daha bir məqam baş nazirin çıxışının duyğusal tonu idi. Onun səsi bir qədər səmimi səslənsəydi, daha yaxşı olardı və ola bilsin, ictimai çıxışın özü daha həssas qavranılardı. Bəs nə imiş? Bəlli olub ki, Paşinyan heç də Trotski deyil: kamera xarakterli bəm səs, sözlərin məzmunu çıxışın ahənginə yad idi. Bu zaman yaxşı gözə dəyirdi ki, natiq açıqca əsəbiləşir, kağızdan gözünü çəkməyə qorxur. Belə hallarda isə iştirkaçıları hərəkətə təhrik etmək çətindir. Bir də çıxışın inandırıcı tonu da cüzi önəm daşıyır. Paşinyan kütləni tonusda saxlamaq üçün öz səsinə canlılıq verməklə icitmai çıxışındakı başlıca məqamları ayıraraq onun ucalıq və gücünü elə hey dəyişməli idi. Alınmadı. Buna görə də o, Xankəndidə Dirçəliş meydanında ritmik təkrarlanan məşhur "Miatsum! Miatsum" çağırışı ilə çıxışına başlarkən, reaksiya nəzərdə tutulduğu və Ermənistanın bəzi nəşrlərinin qələmə verdiyi qədər fəal olmayıb. Ciddi duyğusal tərkibli və dinləyicilərə daha uyğun mənzərə təsvir edən əks-gediş də buradandır. "DQR"in prezidenti Bako Saakyan öz çıxışında gələcəklərinin başqa formulunu göstərib. Separatçı rejim Ermənistanla birləşmə yox, belə demək olarsa, müstəqillik istəyib. Bu, Paşinyanın İrəvan və Xankəndi arasında törətdiyi qarşıdurmanı açıq ifadə edir, amma baş nazir, sağlam məntiqə görə, Paşinyanın fikrincə, dövlətçiliyini ancaq korrupsionerlərin qurduğu və möhkəmlətdiyi "Ermənistanı və Qarabağ Respublikasını qurtaran xilaskar" rolunda çıxış etməyə deyil, cəmiyyəti birləşdirməyə can atmalı idi.



Baş nazir bildirir ki, onu seçməyən Dağlıq Qarabağ xalqını təmsil edə bilməz. Və eyni zamanda Xankəndinin indiki hökumətini "qeyri-legitim" elan edir və orada qarşıdakı "prezident seçkilərinin düzgünlük zamini" kimi çıxış etməyə hazır olduğunu sərgiləyir. Paşinyanın siyasəti ilə razılaşmaq, ya da razılaşmamaq olar, amma onun məntiqsizliyi xeyli sual doğurur.

Axı Ermənistanın xarici siyasətinə Dağlıq Qarabağ problemi olmadan baxılarsa, o olduqca əyalətvari görünər. Buna görə də Paşinyanın Qarabağ kartını öz maraqları üzrə oynamaq cəhdləri nədəsə anlaşılandır. Amma məsələ bundadır ki, Ermənistanın siyasət meydanına milli səviyyəli güclü siyasiləri məhz Dağlıq Qarabağ atıb, bu da Azərbaycan üçün böyük problem ifadə edib. Təsadüfi deyil ki, Bakıda şayiələr dolaşıb ki, "Qarabağ klanı"nın aradan qaldırılması ilə, ola bilsin, münaqişənin hansısa güzəştli həlli üçün şanslar meydana çıxa bilər. Belə ki, İrəvan və Xankəndi arasında yaranmış gərginlik obyektivcəsinə Bakının marağındadır. Hətta Paşinyanın elan etdiyi "Ermənistan mərkəziyyətçiliyi" deyilən baxış xarici siyasətdə, həm də İrəvan və Moskvanın qarşılıqlı münasibətlərində müəyyən problemlər yaradır. Sonuncu, hadisələrin belə gedişinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiyanın təsirini zəiflətdiyini hesab edən Azərbaycana əl verir. Təsadüfi deyil ki, Bakı politoloqları hesab edir ki, birincisi, "Miatsum" ideyası Dağlıq Qarabağın Azərbaycandan ayrılması üzrə beynəlxalq birlikdə Ermənistanın mövqeyini zəiflədir.

İkincisi, münaqişə zonasında hərbi əməliyyatların təzələnməsi ehtimalı yüksəlir, çünki "Paşinyanın namizədi Dağlıq Qarabağda gözlənən prezident seçkilərində seçkiqabağı kampaniyasını məhz belə şüarla aparacaq". Üçüncüsü, Xankəndidə Paşinyanın bəyanatının təsdiqi və ya inkarı zəif İrəvan və baş nazirin zəiflətdiyi Xankəndi durumunda Bakının istənilən tip manevr imkanlarını genişləndirər. Bütün bunların arxasında nə durur? Doğrudanmı, təkcə Xankəndi tərəfindən "Ermənistan inqilabı"na zərbə gələ bilər əndişəsi? Ya da hələlik ucadan deyilməyən nəsə daha böyük bir şey? Şəxsən bizdə şübhə doğurur ki, Paşinyanın Xankəndidə səsləndirdiyi mövqe Azərbaycanın uğurlu diplomatik və ya başqa manevrləri ilə üstüstə düşür". İndilikdə isə gözləntilər budur ki, qarşıdakı dövr ərzində Paşinyanla Qarabağ separatçıları arasında ziddiyyət daha da dərinləşəcək. Erməni şərhçi Aram Amatuni iddia edir ki, Bakı Qarabağda yaranmış vəziyyətdən asanlıqla istifadə edə bilər. Buna qədər isə ermənilər arasında ziddiyyət onları daha zəif duruma salacaq.

***Tahir TAĞIYEV***

# Paşinyanın "ölü Miatsumu" xortlatmağı, "iflas ssenarisinə" Əliyevin öncül yanaşması və radikal müxaliflərin "erməni dayılığı"...



Aydın QULİYEV

**Üç gündür Ermənistanın baş naziri Nikol Paşinyanın işğal olunmuş Xankəndi şəhərimizdə "Ümumerməni oyunları" adı altında əslində başqa oyunlarına, onun bəzi bəyanatlarına öz cəmiyyətimizin, erməni cəmiyyətinin, erməni siyasi müxalifətinin, eləcə də Azərbaycan müxalifətinin reaksiyalarını diqqətlə izləyirik.**

Verilən qiymətlərin əyri-doğru saydığımız elementlərini aşkar etməklə bərabər, öz dəyərləndirmələrimiz də, təbii ki, var. Real yanaşmalarla bərabər, populist, qeyri-real, qızışdırıcı mövqelərin də şahidi oluruq. Hər bir reaksiyanın arxasında mümkün qədər obyektiv olmaq iradəsini, sözsüz ki, heç də bütün hallarda görmürük, özünün qrup mənafelərinə söykənən dəyərləndirmələrə də rast gəlinir.

Əvvəlcə Paşinyanın bizim işğal edilmiş Xankəndimizdə söylədiyi "böyük nitqin" tezisvari xülasəsinə baxaq:"Qarabağ Ermənistandır"; "Dünyanın məğrur erməniləri"; "Məqsədimiz Qarabağın öz müqəddəratının təyini yollarında əldə etdiklərini möhkəmləndirməkdir"; "1988-ci ildə bu torpaqlardan bütün dünyanı lərzəyə gətirmiş şüarı mən də deyirəm - Miatsum" və sair. Yəni davam etməkdə olan sülh danışıqlarının 25 ildən çox sürmüş indiyə qədərki mərhələsini tam alt-üst edən "Qarabağı və onun ətrafında işğal etdiyimiz rayonları qaytarmayacağıq" kimi kobud formada ifadə edilmiş inkarçı mövqe, işğal torpaqları hesabına dövlət qurmaq ideologiyası ilə 150 ildən bəri zəhərlənmiş ermənilərin bu gün də yaşayan nəsil davamçılarının gözündə "yaxşı erməni lideri" olmaq istəyi, Ermənistan cəmiyyətini şovinist-ilhaqçı siyasi platforma ətrafında toparlamaq planları, şovinist-ilhaqçı erməniləri qondarma "DQR"-in "rəhbərliyinin" təsir dairəsindən çıxarıb öz təsirinə salmaq və Sarkisyan-Köçəryan klanının tör-töküntüləri kimi onların arxasınca saakyanları da yola salmaq... Bunların hər biri ayrı-ayrılıqda təhlil oluna bilən məsələlər olsa da, onları şərti qruplaşdıraraq qısa baxış keçirmək obyektiv nəticəyə doğru ən qısa yoldur.

### Azərbaycanın radikal-inkarçı müxalifəti əlinə düşən şansı "çeynəmək"...

Azərbaycandakı müxalif radikal-inkarçı kəsimlə Ermənistandakı ilhaqçı-şovinist dairələrin reaksiyaları eyni xəttin üstündə, lakin tam əks tərəflərdə qərarlaşır. Məsələn, Azərbaycanın radikal-inkarçı müxalifəti əlinə düşmüş fürsəti "çeynəmək" şansını buraxmaq istəməyərək məsələyə İlham Əliyevin başçılığı altında Azərbaycan diplomatiyasının "böyük məğlubiyyət" səhnəsi kimi baxır, bu zaman sırf kütlə təfəkkürünün "dopinqi" sayılan "ermənilərin bizim torpaqlarımızda meydan oxuması zəifliyimizdir" kimi populist deyimə əsaslanır, elə bunun üstündə də cəmiyyəti İlham Əliyevin prezident və Ali Baş Komandan olaraq daha düşünülmüş və sakit reaksiyasına qarşı kökləməyə çalışır. Onlarda əminlik var ki, "İlham Əliyev nə üçün Paşinyanın sərsəm "Miatsum" bəyanatına qarşı dərhal Silahlı Qüvvələrə əmr verməditi" kimi ittihamçı sualla həqiqətən də xalqı hakimiyyətin üstünə yönəltmək üçün əlavə motiv əldə edə biləcəklər. Ancaq bu əminlik sosial şəbəkələrdə hakimiyyətin ənənəvi ittihamçılarına çevrilmiş azsaylı narazılar qrupunu yeni fəallaşma dalğasına çıxarmaqdan o yana gedən effekt vermir. Əslində bir az dərindən düşünməyi bacaranlar bu effektsizliyi elə ilk dəqiqələrdən görə bilirdilər. Axı Paşinyan Xankəndi mitinqində yeni və qondarma "DQR"-in "rəhbərliyində" oturmuş Köçəryançı-Sarkisyançı tör-töküntünün indiyə qədər dediklərindən fərqli nə dedi ki?! Məgər indiyə qədərki 1 il 4 ayda Paşinyan "Qarabağ Azərbaycanındır" deyirdi ki, Xankəndidə söylədiyi "miatsum" bəyanatı yeni və fərqli davranış kimi xarakterizə olunsun?! Xankəndidə "miatsum" bəyanatını ermənilərə yeni hadisə kimi təqdim etmək cəhdi Paşinyanın özünün şəxsi oyun planlarına daxil olan bir elementdir. Xankəndidəki həmin mitinqdən bir gün qabaq ermənilərə lovğa-lovğa müraciət edərək "mümkün qədər hamınız Qarabağa gəlin, sizə mühüm açıqlamalar verəcəm" kimi çağırışı təsadüfən etmədi. Hər şey çox sadədir. Paşinyan, sadəcə olaraq, Xankəndiyə çoxlu erməni toplamaq və çoxdan "dişini qıcıyıb üstünə yerimək istədiyi" yerli hakim qruplaşmaya əzələ göstərmək istəyirdi. Yəni "baxın, bu mənim çağırışıma hay verən şəxsi güclərimdir, özü də sizin meydançanızda".

Beləliklə, Xankəndi mitinqi Paşinyana Qarabağ məsələsində "miatsum" adı ilə yeni mərhələ açmaqdan daha çox, Sarkisyanın dalınca yola salmaq istədiyi qondarma "DQR" "rəhbərlərinə" güc göstərmək üçün lazım idi. Ölkənin içinə hesablanmış siyasi oyun buna deyirlər.

### Paşinyan 31 il əvvəl bağıran saqqallı ermənilərin səviyyəsinə düşdü...

Paşinyan "miatsum" sözünü həqiqətən də ilk dəfə Xankəndi mitinqində səsləndirdi. Ancaq təzə olan onun leksikonunda tək "miatsum" sözüdür. "Miatsum"un məzmununa uyğun siyasi davranışlar isə elə ilk gündən onun fəaliyyət platformasında var, onu özündən əvvəlki iqtidarlardan miras alıb və cürbəcür aldadıcı, dayaz ideoloji ifadələrlə həmin siyasəti davam etdirmək istəyir. Hədəf eynidir - Qarabağın Azərbaycanın tərkibinə qaytarılmasına imkan verməmək. Qarabağ Azərbaycanın tərkibinə qaytarılmayıbsa, onun "havadan asılı" vəziyyətdə qalmasının və ya Ermənistana birləşmiş kimi təsəvvür edilməsinin zatən bizim üçün heç bir fərqi qalmır. Ancaq bunun şəxsən Paşinyan üçün böyük fərqi var və məhz həmin fərqin ört-basdır edilməsi xatirinə mitinqdə "miatsum" deyərək 31 il əvvəl "Stepanakert" deyilən yerdə bağırmış saqqallı ermənilərin səviyyəsinə düşdü. Bir haşiyədən sonra Paşinyanın enən istiqamətdə səviyyə dəyişməsinin mahiyyətinin nədən ibarət olduğuna qayıdacağıq. Haşiyəmiz Paşinyanın məlum çıxışına münasibətdə şovinist-ilhaqçı ermənilərlə eyni xəttin üstündə, ancaq əks nöqtədə qərarlaşan Azərbaycanın radikal-inkarçı müxalifətinin mövqeyi ilə bağlıdır. Biz burada hər şeyi çox asanlaşdıran bəsit düşüncə və məsuliyyətsiz avantürizmin qaynamağını görürdük. "Paşinyan o bəyanatı verən kimi Azərbaycan ordusuna dərhal hücum əmri verilməliydi" deyən müxalif radikalların və onların təsirinə düşmüş sosial şəbəkə fəallarının davranışlarına bundan dəqiq ad düşünmək çətindir. Dünyadakı reallıqlardan, regiondakı vəziyyətdən, müharibənin kimə lazım olmasından, kimə lazım olmamasından, hansı nəticələr doğuracağından, 1994-cü ildə Füzuli, 2016-cı ildə Lələtəpə əməliyyatlarında üçüncü qüvvələrin davranışlarından xəbərsizlik sonucu bəlli olmayan avantüralardan başqa nəsə deyil. Paşinyanın "miatsum" bəyanatının dərhal ardından Ordunun ayağa qaldırılması Azərbaycan üçün avantürist hərəkət olmaqla, sadəcə "ürəklərdən tikan çıxarmaq" effektinə malik gediş ola bilərdi. Ancaq əvəzində "miatsum" adı ilə onsuz da Ermənistanın daxili auditoriyasına yönəlik oyun qurmuş Paşinyanın şəxsi planlarının xeyrinə yeni vəziyyətlər yarada bilərdi.

### "Miatsum" çöpündən yapışmaq hələ o demək deyil ki...

Məlumdur ki, Paşinyan ölkəsində hakimiyyət dəyişikliyinə sosial inqilabçılıq şüarları və tələbləri ilə nail oldu. Həmin vaxt Paşinyanın əsas dəstəkçi qüvvəsi məhz sosial problemlər üstündə siyasiləşmiş insan qrupları idi. Qarabağla əlaqəli proseslər birbaşa mənada onlar üçün maraqlı deyildi. Əsasən yoxsulluğa, işsizliyə, hüquqsuzluğa, korrupsiya və talançılığa qarşı kökləndikləri üçün Qarabağ məsələsi onlara yalnız dolayı təsir rolu oynaya bilirdi. İnqilabdan ötmüş il yarım ərzində Paşinyan ondan köklü sosial dəyişikliklər gözləyən təbəqəyə praktik olaraq nəsə verməyi bacarmadığı üçün kütlənin gözündə sosial-inqilab dəyərləri sürətlə sönürdü. Təbii ki, Paşinyan və onun komandası bunu görür, qarşısını almaq üçün prosesə əks gedişlər axtarırdı. Tapdıqları isə bu oldu - şovinist-ilhaqçı erməni kəsimini öz yanına çəkmək və onların daha fəal enerjisi ilə ümidi qırılmış sosial-inqilabçı kəsimi aktivləşdirmək. Bunun yolu Xankəndidə "miatsum" bəyanatı səsləndirməkdən keçirdi ki, Paşinyan da məhz bunu elədi. Lakin "miatsum çöpündən" yapışmaq hələ o demək deyil ki, erməni baş nazir əsas hədəfinə yetişdi və ruhdan düşmüş sosial-inqilabçı kütlə ilə fəal şovinist-ilhaqçı təbəqəni birləşdirərək erməni cəmiyyətində ümumi fəal axın yarada bildi. Təmkinli və məntiqli düşüncə çərçivəsində baxsaq, Paşinyanın hədəfdən çox uzaq keçərək "yerə dəydiyi" yüz faizli reallıqdır. Baxmayaraq ki, Azərbaycandakı radikal-müxalif kəsim İlham Əliyevin orduya əmr verməməsini məğlubiyyət və ya ziyanlı təmkinlilik kimi qiymətləndirdiyi üçün Paşinyanın sözügedən hədəfə çatdığını və məntiqi olaraq situasiyadan guya qalib çıxdığını iddia edir. Əslində isə həm də Azərbaycan radikallarının ermənilərə "yersiz dayılığının" müəyyən əlamətlərini üzə çıxaran bu situasiyada qalibin və məğlubun kim olduğunu tam yəqinləşdirmək üçün daha bir təhlil istiqamətinə nəzər yetirmək lazımdır. Artıq şübhə yoxdur ki, Paşinyanı "miatsumun dalınca qoşaraq" Xankəndiyə çəkib gətirən ilk məqsəd sürətlə itirməyə başladığı nüfuzunu bərpa etmək, ondan üz döndərən inqilab tərəfdarlarını geri qaytarmaq və bu rels üstündə ölkədə ümumi fəal hərəkat mərhələsi açmaq idi.

*(Ardı 9-cu səh.)*

(Əvvəli 8-ci səh.)

Artıq deyildiyi kimi, bu məqsədə yetişə bilmədi. Çünki sadəcə yaşayış, rifah və həqiqi islahatlar gözləyən sosialçı təbəqə ilə boşboğaz və şovinist "Qarabağçı" təbəqənin birləşməsi sadəcə mümkünsüzdür. Onlar bir-birini indi heç anlamırlar da...

Paşinyanın ikinci hədəfi "miatsum" çılğınlığını işə salaraq, hazırda "dəftər-qələmi" itirilmiş erməni diasporunu yenidən öz ətrafında toparlamaq idi. Bu istiqamətdə Paşinyanın vəziyyəti daha acınacaqlıdı. Başqa istiqamətlərdə olduğu kimi, diaspor quruculuğu sahəsində də Paşinyanın iflasa uğradığını hamı bilir. Bu sahə üçün dəyişikliklərə çox hay-küylə başladı.

Diaspor nazirliyini ləğv etdi, nəticədə nəinki diasporun Ermənistan ətrafında toparlanmasına nail ola bilmədi, əksinə, diaspor onun komandasından tam üz çevirdi. Paşinyan köklü islahatlar proqramı ortaya qoya bilmədiyinə görə islahat adlandırdığı işlərə diasporun dəstəyini ala bilmədi, varlı diaspor təmsilçiləri Paşinyana pul, ölkəyə investisiya yatırmadılar. Bu şəraitdə Paşinyan "sosial islahatlara dəstək verməyən erməni diasporu üçün miatsum xülyası daha cəlbedici olacaq" düşüncəsi ilə İrəvandan Qarabağ mitinqinə doğru yol keçdi. Onun mitinqdə "Ermənistan-Qarabağ-diaspor" kimi mifik bir "üçbucaq qüvvədən" danışması məhz bu məqsədə xidmət edən uğursuz və aldadıcı gediş oldu. Çünki çox həssas və praqmatik olan erməni diaspor elitasının hazırda getdikcə güclənməkdə olan əksinqilab dalğası ilə üz-üzə qalmış Paşinyanın yanında yer alacağını düşünmək sadəlövhlük olardı.

### Baş nazirin "küpü süzdü" və anladı ki...

Paşinyanın "miatsum" mitinqi arxasında qurduğu oyunun üçüncü hədəfi daha maraqlıdır. Baş nazirin hakimiyyətə qondarma "DQR"-i danışıqlara ayrıca tərəf kimi daxil etmək hay-küyü ilə gəldiyi, yəqin ki, unudulmayıb. Paşinyandan əvvəlkilər də bir neçə bu cür uğursuz mərhələlərdən keçmişdilər. Hələ 90-cı illərin əvvəllərindəki hakimiyyətlər əvvəlcə Qarabağı birmənalı Ermənistana rəsmi birləşdirməyə nail olmaq yolu tutdular. Dünyada Qarabağı Ermənistanın tərkibində torpaq kimi tanıyan olmadı. Valı dəyişdilər və qondarma "DQR"-in özünü beynəlxalq hüququn müstəqil subyekti kimi tanıtmaq kursuna baş vurdular. Hətta Ermənistanın özünün də qondarma "DQR"-i ayrıca dövlət kimi tanıya bilmədiyi fiasko vəziyyəti ilə üzləşdilər. Bütün bu mərhələləri bir vaxt küçə siyasətçisi və cızmaqaraçı jurnalist olaraq kənardan yaxşı müşahidə etmiş Paşinyan formaca bir qədər fərqli cığır seçdi. "Mən Qarabağın adından danışıqlar apara bilmərəm" fikri altında açılan guya yeni cığır əslində qondarma "respublikanı" ayrıca dövlət olaraq tanıtmaq kimi köhnə zurnaların çalınmasından başqa bir şey olmadı. Paşinyan öz aləmində kiçik biclik işlədərək qondarma "respublika"nı dünyada ayrıca subyekt kimi tanıtmaq yolunda ibtidai addımdan başlamaq istədi - qondarma "respublika"nı danışıqlar prosesinə tərəf kimi daxil etdirmək. Kiçik bicliyin, sözsüz ki, uğur şansı heç əvvəldən yox idi. Çünki hamı başa düşür ki, qondarma "respublika"nın danışıqlara tərəf kimi qoşulması onun dünyada təzə dövlət kimi tanınması yolunda tutarlı addım ola bilərdi. Fransa məhkəmələri "erməni nəzəriyyələri" üstündə Qarabağ və fransız şəhərlərinin qardaşlaşma aktlarını bir-bir ləğv edəndə Paşinyanın "küpü süzdü". Baş nazir anladı ki, qondarma "DQR"-i dünyada dövlət kimi tanıtmaq siyasətinin artıq heç bir perspektivi qalmayıb. Tanıtma siyasəti perspektivsizliyə məhkum oldusa, bu halda qondarma "DQR"-i danışıqlara tərəf kimi qatmaq siyasətinin də perspektivi və mənası qalmırdı. "DQR"-i dövlət kimi tanıda, tərəf kimi danışıqlara qata bilməyən Paşinyanın qarşısında çətin sual yarandı - nə etməli? "Miatsum"! Beləliklə Paşinyan mitinqə "miatsum" şüarı gətirməklə özünün göstərdiyimiz iki istiqamətdəki "Qarabağ iflası"ndan ermənilərin diqqətini yayındırmaq ssenarisi oynamaq istədi. Görürsünüzmü, yenə daxilə hesablanmış oyun... Əslində isflasdan yayınma oyunu... kimi daha dəqiq adı olan bu ssenarinin içindəki fiqurlara yekun olaraq bir daha baxaq. Paşinyan, ümidi qırılmış sosial inqilabçılar, şovinist-ilhaqçı kəsim, hökmü verilmiş qondarma "DQR prezidenti", küskün erməni diasporu... İflas ssenarisini sırf siyasi ambisiyalarla Paşinyanın gücü, Prezident Əliyevin zəif davranışı kimi təqdim edən Azərbaycanın radikal ittihamçı müxalifəti... Paşinyanın "miatsum" bəyanatını Ermənistana ağır zərbə kimi qiymətləndirən erməni müxalifəti və... Ssenarinin iflas mahiyyətini öncədən aydın gördüyü üçün təmkinli siyasi davranışı üstün tutan Azərbaycan Prezidenti...

Əliyevin təmkinlə və emosiyasız davranaraq provokasiyalara uymadan düzgün nəticə çıxarması konkret situasiyada Azərbaycan diplomatiyasına daha iki üstünlük qazandırdı - Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı ilə düz 25 ildə danışıqlar prosesinin əsl pozucu tərəfinin kim olduğu təsdiqləndi və münaqişənin həlli üzrə vasitəçiləri Azərbaycanın prinsiplərinə daha sayğılı olmaq məcburiyyətində qoyaraq, hərbi gücdən legitim istifadə yolunu tam açdı.

# Qərbə sığınmış dönük Azərbaycan radikallarının öz aralarında "söyüş döyüşü" başlayıb

**Belə bir deyim var ki, tarixdə silah gəzdirmiş xalqlarda söyüş heç vaxt olmayıb. Bizim ata-babalarımız hər zaman belində xəncər, əlində tüfəng gəzdiriblər. Qədim zamanlarda kişilər öz namuslarını özləri qoruyublar. Yazılan qanunlar geniş təşəkkül tapmadığı dönəmdə bu belə olub. Kimsə-kimisə ictimai yerdə, insanların arasında söyməyin bədəlinin ağır olduğunu anlayıb, onun məsuliyyətini dərk edib.**

Yəni bu cür hallarla bağlı bizdə qədimdən bir yazılmamış ənənə formalaşıb.

Hətta Rus İmperiyasının əsarəti altında yaşadığımız dönəmdə belə, bu qaydaları qoruyub saxlamağa nail olduq. Rusların söyüşgənliyi belə bizə təsir etmək gücündə olmadı. Təəssüf ki, müasir dövrümüzdə virtual aləmin verdiyi imkanlardan istifadə edən, ən əsası da hakimiyyətin və daha çox söydükləri adamların əlinin onlara çatmadığını bilən bəzi başıpozuqlar söyüşün birini bir qəpik edib xərcləyirlər. Adlarını radikal müxalifət qoyan, əslində isə pozğun insanlar toplusundan başqa nəsə sayılmayan həmin cameədəki şəxslər özlərini söyüş makinasına çevirməklə, həm də Qərbin istismarına veriblər. Belələrindən ən üzdə olanı Vidadi İsgəndərli adlı sabiq prokurorluq işçisdir. Ölkədə heç bir ciddi siyasi fəaliyyəti olmayan həmin şəxs indi Fransada oturub söyüş istehsal etməklə məşğuldur. Təbii ki, bu cür adamların özünə uyğun da auditoriyası formalaşır. Onun sabiq dostu və həmkarı olan Qurban Məmmədov da hazırda xaricdədir. O da İngiltərəyə sığınıb. Qurban Məmmədov mühacirətə Vidadidən sonra gedib. Elə xaricə ayağı dəyən kimi, Vidadini söyüş söyməməyə, ədəbərkana dəvət etdi. Hətta istəyinə nail olduğuna dair paylaşımlar da etdi. Amma bir neçə aydan sonra göründü ki, sən demə, nə Vidadi, nə də Qurban əhilləşib. Hər ikisi hakimiyyətin, ölkənin simvollarının ünvanına söyüşlərini davam etdirdilər. Bir qədər keçəndən sonra isə Qurbanla Vidadi bir-birini söyməyə başlayıb. Ən maraqlısı isə budur ki, bunu açıq formada virtual məkanın qarşısında, utanmadan edirlər. Buna səbəb onların xislətləri ilə yanaşı, həm də bir-birinə qarşı səmimi olmamaları olub. Qurban Məmmədov öz canlı yayımında Vidadi İsgəndərli ilə danışıqlarının səs yazısını paylaşıb. Ortaya çıxıb ki, sən demə, hələ yaxın dost olduqları zamanda Qurban Məmmədov Vidadi İsgəndərlinin səsini, danışıqlarını qeydə alırmış. Bu da onların arasındakı dostluğun fəlsəfəsi. Həmin səsləri yayandan sonra Vidadi İsgəndərli canlı yayıma çıxıb Qurban Məmmədovu ən pozğun söyüşlərlə söyüb, təhqir etdi. Hətta ünvanına elə söyüşlər söyüb ki, onların heç qatı açılmayıb. Məsələn, deyir ki, "Qurbanı harada tutsam zorlayacam".




Davranışlarından sübut olunur ki, bu adamlar həm natamamlıq kompleksi yaşamaqla, həm də ciddi psixoloji problemlərə malikdirlər. Ən vacib məqamlardan biri də budur ki, hər iki şəxs özünü siyasi mübarizə apardıqları ilə pərdələməyə çalışır. Bu adla həm təsir altına saldıqları şəxslərdən ianə toplayırlar, həm də guya inqilab lideri olduqlarına dair onları tanımayan adamlara vədlər verirlər. Yəni bir-birini hələ dost ikən, müxalifətdə ola-ola zorlamağa çalışan insanlar xalqa xoş güzəranla bağlı yağlı ümidlər verirlər. Amma zaman ən gözəl hakimdir. Qısa bir zamanda xalq gördü ki, bunlar heç özlərini idarə etmək kimi əxlaqa sahib deyillər. Bundan virtual aləmi seyr edən, orada həmin simpatizanların verilişlərinə təsadüfən rast gələn gənclər ciddi nəticə çıxarmalıdırlar. Azərbaycanda "Facebook" istifadəçilərinin sayı artıq 2 milyonu keçib. Bu çox böyük rəqəmdir. Onlar söyüş söymək yolunu da buna görə seçdilər.

Düşündülər ki, milyonlarla insan olduğu məkanda bu cür yollarla Azərbaycanda istədiklərini həyata keçirə biləcəklər. Ancaq unutdular ki, cəmiyyətimiz küçə uşaqları səviyyəsində olan insanların təhqirinə heç zaman dəstək verməz. Fikrimcə, cəmiyyət olaraq bu kampaniyaya qarşı çıxmalıyıq. Çünki məqsəd milli-mənəvi dəyərlərimizi deqradasiyaya uğratmaq və Azərbaycan dövlətini dəyərdən salmaqdır. Və unutmamalıyıq ki, bu gün bu söyüş terrorunun qarşısına çıxmasaq, sonra xalq olaraq hər birimiz belə terrorla üzləşə bilərik.

***Məhəmmədəli QƏRİBLİ***

# Dünya "valyuta müharibəsi" manatı bahalaşdırır(?)

**Çin və ABŞ-ın yenidən başlatdığı ticarət və buna paralel olaraq "valyuta müharibəsi"nin təsirləri artıq indidən özünü dünya miqyasında hiss etdirməkdədir. Belə ki, artıq bir sıra digər ölkələr də ixraclarını qorumaq üçün milli valyutlarının kursuna yenidən nəzər salmağa hazırlaşır. Bu şəraitdə manatı hansı perspektiv gözləməsi də xüsusi maraq doğurur.**

Qeyd edək ki, əslində, manatın güclənməsi istiqamətində xeyli müddətdir təzyiqlər mövcuddur. Sadəcə, qeyri-neft sektorunda qeydə alınan dinamik yüksəlişi saxlamaq məqsədilə Mərkəzi Bank manatın güclənməsinin qarşısını alır. Bunu elə bu günlərdə Mərkəzi Bankın sədri Elman Rüstəmov da xüsusi olaraq qeyd etmişdi: "Hazırda manat davamlı möhkəmlənmə təzyiqi altındadır. İlin əvvəlindən Neft Fondunun satılmayan 800 milyon dollar vəsaiti var və bu vəsait bazara çıxmayıb. Əgər bazara çıxsaydı, bu gün manatın məzənnəsi çox əhəmiyyətli möhkəmlənmiş olardı". Dünya miqyasında hadisələrin inkişaf axarı göstərir ki, qarşıdakı dövr ərzində manatın möhkəmlənməsi istiqamətində təzyiqlər daha da artacaq. İlk növbədə o baxımdan ki, artıq dünyada yeni "valyuta müharibəsi" başlanıb. Buna öncüllük edənlər isə Çin və ABŞ kimi dünyanın iqtisadi nəhəngləridir. Məhz belə bir vaxtda bəlli olub ki, Çin Xalq Bankı ölkənin milli valyutası yuanın dollar qarşısında məzənnəsini daha 0,47% azaldıb. 1 dollar üçün artıq 7,1 yuan ödəmək lazım gəlir. Bu fonda ABŞ Maliyyə Nazirliyi Çini "valyuta ilə manipulyasiya edən ölkə" adlandırıb və bildirib ki, qurum Çinin "ədalətsiz üstünlükləri"ni aradan qaldırmaq üçün Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlıq edir. ABŞ-da hesab edilir ki, yuanın məzənnəsinin azalması çinli ixracatçılara dünya bazarlarında qiymət üstünlüyü yaradır və ABŞ-da Çin mallarına qoyulmuş tarif hesabına yaranan ziyanı qismən yumşaldır. ABŞ prezidenti Donald Tramp bununla əlaqədar hiddətləndiyini bildirərək "Twitter" səhifəsində bunu "valyuta manipulyasiyası" adlandırıb və deyib ki, bu cür hərəkətlər Çini zəiflədəcək. Çinlə Birləşmiş Ştatlar arasında ticarət müharibəsi 2018-ci ilin baharında başlanıb. O vaxt Vaşinqton bir sıra ölkələrdən, o cümlədən Çindən alüminium və polad idxalına rüsumların artırılması barədə qərar qəbul edib. "Böyük iyirmilik" ölkələrinin Buenos-Ayresdə keçirilmiş zirvə görüşündə Donald Tramp və Si Cinpin ticarət müharibəsində barışıq barədə razılığa gəlib və yeni ticarət rüsumları tətbiq edilməsini 2019-cu ilin martına qədər təxirə salmağı qərara alıblar, lakin sonrakı danışıqlar uğursuz olub. İndi tərəflər arasında iqtisadi münasibətlər şiddətlənməkdədir. Çinin addımına cavab olaraq ABŞ dolların uçot dərəcəsini yenidən aşağı salmağa, bununla onu ucuzlaşdırmağa hazırlaşır. Belə bir vaxtda Avropa Mərkəzi Bankının yeni uçot stavkası azalmaların olacağı ilə bağlı bəyanatı avronun da ucuzlaşacağını deməyə əsas verir. Məhz bu şəraitdə yaranmış vəziyyət onu göstərir ki, qarşıdakı dövr ərzində manat həm dollar, həm də avro qarşısında möhkəmlənəcək. Mərkəzi Bankın müdaxiləsi olmasa, ekspertlər bunun qaçılmaz olduğunu bəyan edir.

Məsələ ilə bağlı bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov da "Sputnik" portalına bildirib ki, Mərkəzi Bank və Neft Fondu istəsə manatı bahalaşdıra bilər: "Bunun üçün Azərbaycanın kifayət qədər valyuta ehtiyatı var. Neft Fondunun valyuta ehtiyatı 40 milyard dolları keçib. Bu gün Azərbaycanın təxminən 50 milyard dollar valyuta ehtiyatı var. Azərbaycanda pul bazası təxminən 10 milyard manatdır. Bu gün dövlət istəsə manatı bahalaşdıra bilər, amma bunu etmək olmaz. Məsələn, Azərbaycan bütün valyuta ehtiyatlarını bazarda satsa, bu zaman 1 dollar təxminən 22 qəpik olacaq. Amma milli valyutamızı qorumaq üçün bütün valyuta ehtiyatlarını götürüb xərcləmək düzgün olmaz və bunun effekti də yoxdur. Mən deyə bilmərəm ki, manat ucuzlaşmalıdır, yoxsa bahalaşmalıdır. Ancaq deyirəm ki, manatın məzənnəsini də bazar müəyyən etməlidir".

Onu da qeyd edək ki, iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib ki, bütövlükdə manatın məzənnəsi sabitdir və sabit olaraq qalır: "Xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülən işlər və valyuta təklifinin genişlənməsi və bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb. Bütövlükdə bu gün Mərkəzi Bankın sterilizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Bu isə bütövlükdə manatın məzənnəsinin nəinki bugünkü sabitliyinə, həm də bütövlükdə gözlənilən sabitliyinə təminat verir. Baxmayaraq ki, məzənnəmiz sabitdir, biz tərəfdaş olan ölkələrlə, ticarət tərəfdaşlarımızla xarici rəqabət qabiliyyətimizi izləyirik". Ekspertlər isə bildirir ki, "valyuta müharibəsi" qızışacağı təqdirdə Mərkəzi Bank üçün manatın məzənnəsini sabit saxlamaq çətin olacaq. Əksinə, belə olan haldı Mərkəzi Bank manatın tədricən güclənməsinə imkan vermək məcburiyyətində də qala bilər.



İndilikdə manatın mövcud məzənnəsinin qorunub saxlanmasında Mərkəzi Bankın müdaxiləsi yenə də həlledici olaraq qalır. Bununla belə, Mərkəzi Bank ilin sonuna doğru yeni ssenarilərə hazır olmalıdır. İlin sonunda dollar, avro, eləcə də bir sıra digər valyutaların manat qarşısında dəyər itirməsi qaçılmaz sayılır. Belə vəziyyətdə digər məqam da dolların dəyər itirməsi fonunda neftin dünya bazar qiymətində artımlar yaşanması ilə bağıldır.

**Bu hal Azərbaycana daxil olan valyutanın miqdarını artırmaqda manat üzərində əlavə təzyiq yaradır. Xatırladaq ki, gələn ildən Azərbaycan həm də qaz ixracından xeyli valyuta əldə edəcək. Qeyri-neft ixracının artımı da ölkəyə valyuta gəlişini çoxaldır. Bütün bunlar manatı daha da bahalaşdıran amillər sırasında yer alır.**

***Nahid SALAYEV***

**Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasət cəmiyyətin bütün sferalarını əhatə edir. Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" bu il iyunun 1-də imzaladığı Sərəncam bu sahədə atılan mühüm addımlardan biridir.**

# Ahıllara günərzi qayğı mərkəzləri hələlik 10 rayonda - Prezidentin yeni layihəsi...



## *Əhməd Qəşəmoğlu: "Dövlətin ahıllara bu cür qayğı göstərməsi Azərbaycan insanının sabaha inamını artırır"*

Məlum olduğu kimi, Sərəncam sosial xidmətlər sistemində yeni bir istiqamət kimi, ahıllar üçün də günərzi xidmətlərin təşkilinə şərait yaradıb.

Artıq Sərəncamın icrası işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət sifarişləri əsasında ilk mərhələdə 10 rayonda ahıllar üçün günərzi xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulub. Məlumatlara görə, mərkəzlərin 4-ü Bakı şəhərində, 6-sı Sumqayıt, Gəncə, Mingəçevir, Abşeron, Xaçmaz, Lənkəran şəhər və rayonlarında yaradılacaq.

Bu mərkəzlərdə tənha ahıllar yarımstasionar şəkildə, yəni günərzi formasında sosial-məişət xidmətləri ilə təmin olunacaq, onların asudə vaxtlarının mənalı təşkili və s. istiqamətlərdə işlər aparılacaq.

Qeyd edilənə görə, hazırda nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi fəaliyyət göstərir. Burada özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan pensiya yaşına çatmış şəxslər daimi dövlət təminatında yaşamaqla, stasionar şəraitdə sosial xidmətlərlə təmin edilirlər.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu mövzu ilə bağlı "Bakı-Xəbər"ə bildirdi ki, ahıllara günərzi qayğı mərkəzlərinin yaradılması dövlətin sosial siyasətinin düzgün istiqamətdə qurulmasının nəticəsidir. Ə.Qəşəmoğlu hesab edir ki, ahıl insanlara qayğı və diqqət məsələsi, onların sosial xidmətlərlə təmin edilməsi dövlətin hər zaman diqqətində olub. Ahıllara bu şəkildə qayğı göstərilməsinin Azərbaycan insanının sabaha ümidinin daha da artmasına böyük təkan verdiyini deyən Ə.Qəşəmoğlunun sözlərinə görə, bu gün qayğıya ehtiyacı olan təbəqə sırasında ahıllar öndə dayanır. "Azərbaycan dövləti tərəfindən ahıllar üçün də günərzi xidmətlərin təşkilinə şərait yaradılması, bunun üçün xüsusi mərkəzlərin açılması çox müsbət haldır. Mən bunu sosial xidmət sahəsində atılan addım kimi dəyərləndirirəm. Hesab edirəm ki, bu mərkəzlərin fəaliyyəti normal səviyyədə qurularsa bunun ahıllara çox böyük faydası dəyəcək. Təbii ki, belə xidmət mərkəzlərinin açılmasına böyük ehtiyac var. Çünki hazırkı vəziyyətdə bizim ahılların bir çoxunun günərzi xidmətlərdən istifadə etməsinə ciddi zərurət var. Əvvəla həkimə getmək, müayinə olunmaq, analiz vermək, dərmanlar almaq ahılların çoxunun maddi imkanı xaricindədir. Bu səbəbdən də bir çox ahıl həkimə gedə bilmir, evdə qalır və xəstəliklərini daha da dərinləşdirir. Bu mərkəzlərdə isə ahılların sağlamlıq durumu da nəzarətdə saxlanacaq. Bu mərkəzlərin açılması və burada ahıllara xidmət göstərilməsi məsələsi ictimai rəyin də müsbət mənada formalaşmasına ciddi təsir göstərəcək. İctimaiyyət dövlətin yaşlı nəslə göstərdiyi qayğıdan məmnun qalacaq. Bunun da çox böyük əhəmiyyəti var".

*"Azərbaycan dövləti tərəfindən ahıllar üçün də günərzi xidmətlərin təşkilinə şərait yaradılması, bunun üçün xüsusi mərkəzlərin açılması çox müsbət haldır"*

Ə.Qəşəmoğlu vurğuladı ki, bütün dövlətlərdə yaşlı nəslə münasibət müsbətdir. Bu mərkəzlərin yaradılmasının sosial tərəfi olmaqla yanaşı, mənəvi-tərbiyəvi əhəmiyyəti də olduğunu vurğulayan ekspert hesab edir ki, ölkədə ahıllara göstərilən bu cür münasibət bu sahədə maarifçiliyin genişlənməsinə də səbəb olacaq. "Dövlətin ahıllara bu cür qayğı göstərməsi Azərbaycan insanının sabaha inamını artırır. Bu xidmət mərkəzlərinin yaradılması həm humanist bir addımdır, həm də dövlətin sosial siyasətinin inkişafının göstəricisidir" - deyə Ə.Qəşəmoğlu qeyd etdi ki, bu mərkəzlər ahılların psixoloji cəhətdən qayğı ilə əhatə olunmasına da xidmət edəcək.

***İradə SARIYEVA***

**Gürcüstan dizel yanacağı Rusiyadan alacaq. Gürcü mediasının yazdığına görə, qərar bir neçə gün əvvəl gürcü Neft İdxalçıları Birliyi tərəfindən təşkil olunmuş seminarda elan olunub. Səbəb kimi 2020-ci il yanvarın 1-dən Gürcüstanda "Avro-4" standartlı dizel yanacağına qadağa qoyulması göstərilir.**

# Gürcüstanın Azərbaycan dizelindən imtinası təsdiqlənir - "Avro-5" səbəb, yoxsa bəhanədir...



## *İlham Şaban: "Gürcüstanın tətbiq etməyə hazırlaşdığı qadağada heç bir siyasi səbəb görmürəm"*

Həmin tarixdən ölkədə yalnız "Avro-5" standartına cavab verən dizel yanacağından istifadə ediləcək.

SOCAR-ın mətbuat xidmətinin rəhbəri İbrahim Əhmədov 2020-ci ildən Gürcüstanın Azərbaycandan dizel yanacağının idxalını dayandırması barədə xəbəri təsdiqləyib. Onun sözlərinə görə, Azərbaycandan dizel yanacağının idxalı Gürcüstan hökumətinin qərarı əsasında dayandırılacaq: "Qeyd edim ki, Azərbaycan tərəfi özü də hələ əvvəlki illərdə dizelin ixracını əhəmiyyətli dərəcədə azaldıb. Bu isə daxili bazarımızda son illər müşahidə olunan ciddi tələbat artımı ilə bağlıdır".

Əhmədov vurğulayıb ki, hazırda SOCAR Gürcüstanla yanaşı, digər ölkələrə də, əsasən Aralıq dənizinin hövzəsinə neft məhsulları və dizel yanacağını ixrac edir: "Mövcud satış şəbəkəmizdən istifadə edərək, biz gələcəkdə sərbəst qalan dizel həcmlərini həmin bazarlara yönləndirməyi və oradakı iştirakımızı artırmağı planlaşdırırıq".

Sonda SOCAR-ın sözçüsü qeyd edib ki, ötən illərin təcrübəsi artıq göstərib ki, həmin bazarlara dizel məhsulunun daha böyük həcmdə çıxarılması üçün yetərli potensial mövcuddur.

Xatırladaq ki, hazırda Gürcüstan dizel yanacağını ən böyük həcmdə Azərbaycandan idxal edir. Azərbaycandan idxal edilən neft məhsulları rus məhsullarından 15 tetri ucuzdur.

Gürcüstanın bu addımı həqiqətən "Avro-5"ə keçidlə bağlıdır, yoxsa bəhanədir?

Enerji məsələləri üzrə ekspert İlham Şaban "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada başqa səbəb axtarmağa dəyməz: "Bu məsələləri bazar qanunları tənzimləyir. Siz istəyərsinizmi baha qiymətə keyfiyyətsiz paltar alasınız? Təbii ki, yox. Bu da elədir. Gürcüstanda dizelə tələbat çoxdur. Fikir versəniz görərsiniz ki, onlarda dizellə benzinin qiymətinin arsında kəskin fərq yoxdur. Qiymət fərqi cüzidir. Onların daxili bazarında yanacağın satışında ciddi rəqabət də var. Yəni bu şəbəkəyə bir şirkət nəzarət etmir ki, nə gəldi satsan. Belə rəqabət olan yerdə, təbii ki, keyfiyyət önə çıxır. Bu səbəbdən də indidən başlarına çarə qılırlar. Biz başa düşürük ki, SOCAR həmin yanacağı başqa ölkələrə sata biləcək. Buna tələbatı olanlar az deyil. Amma biz niyə dünya standartları ilə ayaqlaşmayıb, bazarı itirməliyik? Cənab Prezident hələ 2008-ci ildən fərman verib ki, dizelin keyfiyyəti dünya standartlarına uyğunlaşdırılsın. Bizdə hələ də o zavod tikilməyib.

*"Biz niyə dünya standartları ilə ayaqlaşmayıb, bazarı itirməliyik?"*

Yalnız mövcud olanlarda təkmilləşdirmə aparırlar. O da dünyada tələb olunan standartlara cavab verən məhsul buraxmaq gücündə deyil. İndi söz veriblər ki, 2023-cü ildə tikib bitirəcəklər. Gözləyək, baxaq. Artıq ölkənin daxilində də dizelə tələbat artır. Həm daxili, həm də xarici tələbat üçün biz istehsal etdiyimiz yanacağı dünyada tələb edilən standarta tam çatdırmalıyıq. Bu həm də ekologiyamız üçün faydalıdır. Gürcüstanın tətbiq etməyə hazırlaşdığı qadağada heç bir siyasi səbəb görmürəm. Bunu real bazar qanunları diqtə edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Tovuz dağlarında qara zurna səsi

## Tovuz səfərimdən təəssüratlar...

**Tovuzlu dostlarım, başda təpədən-dırnağa qədər milli ruhlu olan Arzu Nağıyev bilirdilər ki, buralara gələcəm. Zəng zəng dalınca ki, bəs bu gün qonağımsan. Yumşaq şəkildə təşəkkürümü bildirib, Qənirə xanımın "sərəncamında" olduğumuzu dedim. Ta neyləyə bilərik? Başqa cürə mümkün deyildi axı, oxucularla görüşə gəlmişik, özü də Qənirə xanımın təşəbbüsü ilə.**



...XANIM ƏFƏNDİnin diqqəti bir an üzərimizdən əskik olmur. Otelin foyesinə düşən kimi marşrutumuz bilindi: Tovuzun füsunkar gözəlliyi ilə seçilən Əsrik meşəsinə yollanırıq. Yolda Qənirə xanım Tovuz və insanları haqqında şövqlə və fəxrlə danışır, hiss edirəm ki, buralı olmağı ilə qürurlanır. Amma telefon hər üç dəqiqədən bir "qışqırır". Arada öz-özümə deyirəm ki, Allah eləməsin telefon bu qızın qulağında partlasın. Rayona xəbər düşmüşdü ki, Qənirə xanım Tovuzdadır.

Bəhanə ilə yeməyə gəlib onunla görüşənlərin də şahidi olduq. Əvvəl şəkil çəkdirib, sonra da problemlərindən danışırlar. Onu gözaltı izləyirdim. İnsanları səbrlə, aramla dinləyir, hər kəsin dərdinə əlac etməyə calışırdı. Əsəbləşən görmədim, hirslənməyini hiss etmədim. Bir sözlə, Allah bu qıza səbr verib. Yemək də yeməyə qoymurdular. İki məsələdə onun qəti barışmazlığını gördüm: biri övladının ön cəbhədən başqa yerə köçürülməsi xahiş ediləndə onun qəti cavabı sərt şillə kimi xahiş edənin üzünə çırpılırdı: "Nədi, sənin uşağın olmazsa, o biri ananın uşağı olmazsa, bəs bu sərhədləri kim qoruyacaq?" Düz də deyirdi. Halal olsun! İkincisi, təhsil, ali məktəbə qəbulla bağlı edilən xahişlərə qəti rədd cavabı verirdi... "Oxuyaydı, yüksək bal toplayaydı. Milləti cahillikdən yalnız oxumaq qurtara bilər!" Bu da onun sözləridir.

...Əsrik meşəsinin şırıltılı çay suyunun səsi altında özümüzü təbiətin içində əritmək, bir anlığa buranın gözəlliyinin bir parçasına çevrilmək istəyirik. Bura həm də sayı-hesabı bilinməyən istirahət yerləridir. Tovuzdan və ətraf yerlərdən gələn qonaq-qara əskik olmur, baxmayaraq ki, dağın o biri tərəfi Ermənistan əraziləridir. Sevindirici haldir ki, tovuzlular bir qarış torpaq da ermənilərə verməyiblər. Eşq olsun tovuzlulara!

...Qənirə xanımla xalqın millətə çevrilməsindəki əngəllərdən, tarixdən, etnososial psixologiyadan, keçmişimizin və bunun gələcəyə daşıyacağı problemlərdən danışırıq. Çox hazırlıqlıdır. Hansı əngəldən söhbət edirsə, əvvəlcə onun skiletini qurur, sonra ətə-qana dolduraraq tezis şəklində fikirlərini bildirir. Hiss edirəm ki, mənim və xanımımın belə söhbətlərə ehtiyacı olduğu kimi, onun da belə mənəvi mükaliməyə ehtiyacı var. Biz bir növ yorğunluğumuzu belə çıxardırıq.

Söhbəti yaslarımız və toylarımızın üzərinə gətirəndə bizi düşüncələrimizdən və söhbətimizdən dağlara səs salan qara zurnanın və davulun səsi ayırdı. Daha danışmayıb diqqətimizi qara zurnaya kəsdik. Allah, burada nələr yoxmuş. Qara zurnanın səsi şəhərdə və tarixdə itmiş ruhunu özünə qaytarır. Sən musiqiyə qoşulub itmiş, çox zaman parçalanmış ruhunu dağda, bağda axtarmağa başlayırsan. Bu səs səni qəhrəmanlıq, müdriklik, səmimiyyət, bəzəksiz-düzəksiz dünyaya aparır. Burada saflığının beşiyindəsən, törələr sənin başının üstündədir, heç kimin bu törələri pozmağa, ayaqlayıb keçməyə ixtiyarı yoxdur. Yazılmamış qanunların pozulmasına heç kim izn verməz. Zurna səsi törə qaydalarını sənə səslə başa salır, davul da guruldamaqla sənə xəbərdarlıq edir ki, yolunu azmayasan, yatmayasan.

Zurna-davul səsi kəsildi. Ruhum o sehrli səsdən ayrılaraq xanımların yanına qayıtdı. Zarafatla dedim ki, burada şeir yazmağa nə var? Sözlər öz-özünə gəlir. Qənirə xanım zarafatıma tovuzluların bir məsəli ilə cavab verdi. ...Xeyli güldük.

Yenə qara zurnanın, davulun səsi diqqətimizi kəsdi. Arada gəlib XANIM ƏFƏNDİ ilə şəkil çəkdirənlər də öz yerində. Öz-özümə sual verdim: "Niyə toylarımızı gəlib bu dağlarda etmirik? Şadlıq saraylarının musiqi səsləri az qalıb qulağımızı kar, gözlərimizi kor etsin. Niyə hamımız şadlıq saraylarına qaçırıq?" Özüm də cavabını verdim: "Rahatlıq axtarırıq. Özümüzün əlavə yüklənməyimizi istəmirik. Axı bunun üçün qonum-qonşu tökülürdü toy sahibinin evinə, bir ay öncədən hazırlıq gedirdi. İndi hər şeyi özün təkbaşına edirsən. Əvəzində isə doğmalıq, təmas, səmimiyyət, saflıq əlimizdən alınır". Heç bunu düşünmürük...

Musiqi sədası altında Tovuza otelə dönürük. Parkda gəzməyə imkan vermirlər. Yenə də fotosessiya.

...Yolda millət vəkili yenə öz ampluasındadır. Telefona cavab verir, kimlərəsə zəng edir, çox zaman da kimlərinsə problemini həll edir.

Gecə yarıdan keçib, başımız söhbətə necə qarışıbsa artıq zamanla vaxtın yerini səhv salırıq. İntellektual söhbətə çay süfrəsinin arxasında polis rəisi, səhəri gün isə tədbirdən sonra icra başçısı da qatılır...

Gecə yarısı bizdən sonra hara getdiyini səhər tezdən bizim arxamızca gələndə bildik. Hansısa kəndə dərd ovutmağa getmişdi. Bax belə. Tədbirdən çox yazmıram, çünki şəkillər və dərc olunan xəbərlər hər şeyi deyir.

Bircə onu deyim ki, tədbir möhtəşəm idi, həm insan axını, həm də Azərbaycanın ən qədim təhsil ocaqlarından olan 110 yaşlı Puşkin adına orta məktəbdə keçirilməsi məclisə xüsusi rəng qatırdı. Hiss edirsən ki, Tovuzda kitab aclığı var, bilmək, öyrənmək həvəsi var, oxumaq onlar üçün gələcək deməkdir. Kaş bütün Azərbaycanda belə olaydı. Oxumaq və savadlanmaq, bilik yiyəsi olmaq millətimizin qurtuluşudur. Çıxışlarımız da möhtəşəm oldu. Xalqın başa düşdüyü dildə "Tarix nədir?" , "Tarixi bilmək niyə lazımdır?" kimi mövzularda danışdıq. Düşünürəm akademik dildən, pafosdan kənar danışmaq xalqla ziyalılar arasında körpü və doğmalıq yaradır və hamını dövlətə, vətənə, millətə daha sıx bağlayır. Çıxışımda dediyim kimi: "Tarix sevgi ölçüsüdür!"

Beləcə iki günlük səfərimiz başa çatdı...

P.S. Bu səfərə görə Qənirə xanıma, şəhər ictimaiyyətinə, icra başçısına təşəkkürümüzü bildiririk.

*Yunus Oğuz*

# Bakıda ilanlar çoxalır - hətta "28 Mall"da ilan?

**Yay fəslində ölkə ərazisində müşahidə olunan ilanların sayı artır. Bu hal daha çox bölgələrdə müşahidə olunurdu. Ancaq son günlər bölgələrlə yanaşı, paytaxt Bakı ərazisində də ilanlar görünməyə başlayıb. Məlumatlara görə, sürünənlər sinfinə aid olan adıçəkilən heyvan daha çox Dənizkənarı Milli Park ərazisində görünüb.**



***Səbinə Bünyatova:*** *"Xəzərdə yaşayan su ilanları vaxtaşırı sahilə çıxırlar"*

***Telman Zeynalov:*** *"Son zamanlar şəhərdə aparılan tikinti işləri ilə əlaqədar olaraq ilan yuvaları dağıdıldığı üçün sürünənlər şəhərə yayılıb"*

***Nuranə İsgəndərova:*** *"28 Mall" ticarət mərkəzinə ilanın necə daxil olması..."*

Bulvar ərazisində olanlar sürünənləri gördükləri barədə sosial şəbəkədə məlumat paylaşıblar. Bildirilir ki, bulvarda bir neçə yerdə ilanla rastlaşılıb. Bundan başqa, şəhərin müxtəlif yerlərində sürünənlərə rast gəlinib. Hətta ilanlar insanların gediş-gəliş etdiyi ərazilərə də dadanıblar. Vətəndaşlardan biri "28 Mall"da ilanla rastlaşıb. İlanı ticarət mərkəzinin avtodayanacağında görüblər.

Bakı bölgələrlə müqayisədə səhralıq ərazi deyil ki, paytaxtda sürünənlər qeydə alınsın. Əhalinin sıx toplaşdığı ərazidə ilanların nə səbəbdən görünməsini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun Zooloji Muzeyinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Səbinə Bünyatova bildirdi ki, Abşeron yarımadası, o cümlədən, Bakı arid zona (su səthindən buxarlanma atmosfer çöküntülərindən çox olan iqlim zonası) olduğundan, burada ilanların yaşaması üçün çox əlverişli mühit var. Onun sözlərinə görə, Xəzər sahilində də ilanlara rast gəlmək adi haldır: "Bulvarda ilanların peyda olması ilə bağlı bizə məlumat daxil olmayıb. Amma orada ilanlar olsa belə, bu, adi haldır. Çünki Xəzərdə yaşayan su ilanları vaxtaşırı sahilə çıxırlar. Onlar adətən qidalarını dənizdə qəbul edirlər, Günəş şüası qəbul etmək üçün sahilə çıxır, sonra yenidən dənizə qayıdırlar. Su ilanları insan üçün təhlükəli deyil".

"28 Mall" ticarət mərkəzinə ilanın necə daxil olması sualımızı cavablandıran "PAŞA İnşaat" ticarət mərkəzlərinin marketinq meneceri Nuranə İsgəndərova qeyd etdi ki, bu onlar üçün də naməlumdur: "Çünki ticarət mərkəzində ayda iki dəfə zərərvericilərə qarşı mübarizə məqsədilə dərmanlama işi aparılır. Ticarət mərkəzində fəaliyyət göstərən ərzaq mağazalarının və restoranların isə sertifikatı var. Biz güman edirik ki, ilan hansısa avtomobilin altında ticarət mərkəzinə gəlib. Çünki ilana parkinqdə rast gəlinib. Dərhal da ilan tutulub".

**Ekoloq Telman Zeynalov qeyd etdi ki, Bakı qapalı ərazi idi. Ancaq son zamanlar şəhərdə aparılan tikinti işləri ilə əlaqədar olaraq ilan yuvaları dağıdılıb. Nəticədə isə sürünənlər şəhərin istənilən yerində görünür. Şəhərdə aparılan tikinti işləri ilə əlaqədar olaraq Bakının müxtəlif ərazilərində ilan görünə bilər.**

*Günel CƏLİLOVA*

**XX əsrin əvvəllərinədək qızların zorla erkən yaşda ərə verilməsi Azərbaycanda geniş yayılmış bir hal idi. Qızlar çox zaman 12-13 yaşlarında kəbinli qadın olmaq məcburiyyətində qalırdılar. Qismən Xalq Cümhuriyyəti dövründə, əsaslı şəkildə isə Sovet hakimiyyəti zamanı, yəni XX əsrin 30-cu illərində vidalaşdığımız bu problem, təəssüf ki, yenə də aktuallaşıb.**

# Erkən ərə verilmələrə qarşı intihar hərəkətləri...

Qızların təhsildən yayındırılaraq erkən yaşda ərə verilməsi indi Azərbaycanın bir sıra regionlarının acı reallığıdır. Kəndlərdəki vəziyyət daha acınacaqlıdır. Hətta qızları bəzən valideynləri, ümumiyyətlə, məktəbə getməyə qoymurlar. Orta məktəbi qurtarıb ərə getməyən qız "evdə qalmış" hesab olunur və ictimai qınaq hədəfinə çevrilir. Qızları məktəbdən kənarlaşdırarkən onların rəyi nəzərə alınmır. Orta məktəbi bitirməyən qızların bəzisi taleyinə boyun əyib 16-17 yaşlarında valideynlərinin onlar üçün seçdiyi namizədlə ailə həyatı qurur. Bəziləri isə ailə qurmaq deyil, oxuyub karyera qurmaq üçün valideynlərinin istəyinə etiraz bildirib, özlərində güc tapıb ailələrini tərk edib, xəyallarının arxasınca gedirlər. Ancaq elə qızlar da var ki, onlar nə valideynlərinin onlar üçün seçdiyi şəxslə ailə həyatı qurmaq istəyir, nə də özündə güc tapıb onların istəyinə qarşı gedə bilir. Çıxış yolunu intiharda görür.

Son bir həftə ərzində iki 17 yaşlı qız erkən evliliyə qarşı çıxa bilmədikləri üçün son çarəni intiharda görüblər.

Zaqatala və Cəlilabadda iki 17 yaşlı qızın intiharı faktı qeydə alınıb. Onların erkən nikaha məcbur edildiyi iddia olunub və bu addımı ona görə atdıqları bildirilib.

Zaqatalanın Əliabad qəsəbə sakini, 17 yaşlı Gülər İsmayılovanın intihar etməsi xəbəri ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. İlkin yayılan məlumata görə, yeniyetmə qız təhsilini davam etmək istəsə də, valideynləri onu özündən 15 yaş böyük iş adamı ilə nişanlamağa çalışıblar. Beləliklə, nişan gününə bir gün qalmış Gülər İsmayılova evin həyətində özünü asaraq intihar edib.

Növbəti bədbəxt hadisə isə Cəlilabadda qeydə alınıb. Hadisə avqustun 6-na keçən gecə Cəlilabad rayonunun Əliqasımlı kəndində baş verib. Kənd sakini Hacıyeva Aysun Maqsud qızı həyətdəki yarımtikilidə özünü asıb. Cəlilabad rayonunun hüquq-mühafizə orqanlarının yaydığı məlumatda qeyd olunur ki, qızın özünü öldürməsinə səbəb ailəsinin onu məcburi şəkildə ərə vermək istəməsi olub.




***Elgün Səfərov:** "Erkən nikaha məcburetmə ziyalı ailələrində də qeydə alınır"*

***Mehriban Zeynalova:** "Əvvəllər ölkədə övladını təhsildən yayındırmağa çalışan valideynlərin məsuliyyətə cəlb olunması, cəza metodları olub"*

***Könül Vaqifqızı:** "Qızları intihar edən ailələr sonradan min cür bəhanə gətirirlər"*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov bildirdi ki, bir ay ərzində bir neçə analoji faktın baş verməsi təəssüf doğurur: "Yetkinlik yaşına çatmayan qızların intihar və intihara cəhd faktlarının araşdırılması məqsədilə regionlarda monitorinq komissiyaları vasitəsilə nəzarət davam etdirilir. Eyni zamanda, onların ailə üzvləri, yaşadığı ünvandakı qohumları, tanışları tərəfindən məlumatların toplanması istiqamətində işlər aparılır. Hüquq-mühafizə orqanları, Daxili İşlər Nazirliyi və prokurorluq orqanları tərəfindən cinayət araşdırmalarının tətbiqi işləri davam etdirilir. Bütün özünəqəsdlərlə bağlı Cinayət Məcəlləsinin 125-ci maddəsi, özünü öldürmə həddində çatdırma ilə bağlı cinayət işləri açılıb. Hazırda istintaq işləri davam etdirilir. 17 yaşlı qızların intiharında erkən nikaha məcburetmə faktı öz təsdiqini taparsa, əlavə cinayət işləri də açılacaq. Belə olan halda, Dövlət Komitəsi tərəfindən Cinayət Məcəlləsinin 176.1-ci maddəsi, qadını nikaha daxil olmağa məcburetmə ilə bağlı əlavə cinayət işi açılması vacib hesab ediləcək. Bu halların araşdırılmasında hüquq-mühafizə orqanlarının mövqelərinin tətbiqi vacibdir. Eyni zamanda, psixoloqların və sosial işçilərin proseslərə cəlb edilməsi vacibdir ki, ailələrdəki digər uşaqlara təsirləri minimum dərəcədə olsun. Hazırda bu məsələ ilə bağlı prokurorluğun rəyini gözləyirik".

Həmsöhbətimiz təəssüf hissilə vurğuladı ki, bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da nikaha məcburetmə halları yaşanır. Problemin qarşısının alınması üçün koordinasiyalı şəkildə işlər aparılmalıdır. Əsas məsələ vətəndaşlarda formalaşan stereotiplərin dəyişdirilməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsidir: "Məlumat üçün onu da qeyd edim ki, erkən nikaha məcburetmə ziyalı ailələrində də qeydə alınır. Bakı həm ziyalılıq səviyyəsinə, həm ali təhsil alanların sayına görə öndədir. Amma Bakıda da erkən nikaha məcburetmə halları var. Amma monitorinqlər göstərir ki, erkən nikaha məcburetmə təhsil səviyyəsi aşağı və yüksək olan ailələrdə də qeydə alınır".

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirdi ki, əvvəllər ölkədə övladını təhsildən yayındırmağa çalışan valideynlərin məsuliyyətə cəlb olunması, cəza metodları olub: "Bəzən bəhanə gətirirlər ki, qızları şəhərə oxumağa getsə, müxtəlif problemlərlə qarşılaşa bilər, əxlaqı pozular və sairə. Valideyn övladını düzgün tərbiyə etsə və onu düzgün informasiya ilə məlumatlandırsa, uşaq kənardan informasiya almayıb, valideynlə bərabər məsələləri müzakirə etməyə hazır olsa, düşünürəm ki, heç nədən qorxmaq lazım deyil. Valideynin övladının təhsil hüququnu məhdudlaşdırması yolverilməzdir. Bəzən də deyirlər ki, təhsil haqqını ödəməyə imkan yoxdur. Bəlkə uşaq ödənişsiz təhsili qazanacaq? Bu cür fikirdə olanlar 16 yaşında qızını ərə verib, sonra ona yaxın durmayanlardır. Onlar üçün qıza kapital qoyuluşu əlverişli deyil. Bunun da kökündə stereotiplər durur. Bu cür valideynlər düşünürlər ki, oğlan böyüyüb evə qazanc gətirəcək, onları saxlayacaq, qız isə başqa evə köçəcək, qazancını başqalarına verəcək, ona görə qız uşağı əlverişli deyil. Bax, bu stereotiplərdən azad olmalıyıq".

Psixoloq Könül Vaqifqızı qeyd etdi ki, qızların erkən yaşda ərə verilməsi problemi daim aktual olub: "Məktəbyaşlı qızlar gəlinlik paltarı deyil, oxumaq istədiklərini valideynlərinə, doğmalarına dedikdə onlar təzyiqlə qarşılaşırlar. Bu hal hər zaman olub və olacaq da. İradəsi zəif olan yeniyetmə qızlar ərə getmək istəmədikləri üçün həyatlarına son qoyurlar. Qızları intihar edən ailələr sonradan deyirlər ki, guya fərqli səbəbdən intihar edib, ailə zorakılığı olmayıb, uşağın özünün psixologiyasında problem var idi. Min cür bəhanə gətirirlər, amma hamımız yaxşı bilirik ki, qızların məktəbdən uzaqlaşdırılmasının nəticələri çox ağır olur. Sonuncu nümunədə də, gördüyümüz kimi, çox təəssüflər olsun ki, mələk kimi bir qız öz canına qıydı. Əvvəlcə qız evdən qaçıb, bu onun valideynlərinə mesajı olub ki, məni istəmədiyim həyata zorlamayın. Qızın evdən qaçmasına baxmayaraq, valideynləri yenə də nişan etməyə qərar veriblərsə, onun intiharına səbəb olublarsa, cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Bu, 17 yaşlı uşaqdır, yeniyetmədir. Bu yaşda onun qarşısında mayak olmaq lazımdır, yol göstərmək lazımdır, nəinki harasa sürükləmək".

Psixoloqun sözlərinə görə, maarifləndirmə tədbirləri aparılsa da, istər bölgələrdə, istərsə də paytaxtda yenə də belə halların baş verməsi faciədir: "Əslində, müəyyən kütlə bunun faciə olmadığını, sadəcə, indvidual olaylar olduğunu düşünür. Amma elə deyil. Hələ bu, mediada səs salan hadisələrdir. Halbuki, mətbuatda yayımlanmayan olaylar da çoxdur. Nəinki 17 yaş, 15 yaşlı qızlar da evlənməyə məcbur edilir. Hamısı da intihar etmədiyinə görə gizli qalır. Bu mövzuda istər psixoloji, istər etik, istərsə də tibbi cəhətdən cəmiyyətə vurduğu ziyandan o qədər danışmaq olar ki... Öncə qeyd etməliyəm ki, bir qız məcbur və ya istəyərək 15-17 yaşında ailə qurmağa yönləndirilirsə, o, sabah hansı ailənin başçısı olacaq? Həmin qız erkən yaşında ana olacaq və cəmiyyət üçün bir insan yetişdirəcək, bəs o insanın psixoloji durumu necə olacaq? 17 yaşında hamiləlik depressiyası, doğuşdan sonrakı depressiyanı yaşamış bir uşaq gələcək övladına hansı tərbiyəni verəcək? Yaxud şəxsiyyətində hansı korreksiya işləri aparacaq? Bu da çox önəmlidir. Deməli, təkcə ailə deyil, həm də cəmiyyət ziyan çəkir. Digər tərəfdən, bir qız tez ailə qurduğu üçün intihar etməsə belə, yenə də mənim üçün o, mənəvi cəhətdən intihar etmiş sayılır. Çünki o, artıq cəmiyyətə heç bir faydası olmayan insandır. Özü hiss etməsə belə, onun daxili aləmi parçalanır".

Psixoloq onu da vurğuladı ki, qızlarını erkən yaşda evləndirən və ya məcbur edən ailə üçün cəmiyyət faktoru önəmli rol oynayır: "Yəni camaatın "filankəsin qızı ailə qurmadı" və ya "filankəsin qızı evdə qaldı" kimi fikirləri həmin ailə üçün əhəmiyyət kəsb edir. Sanki qızın evdə qalması bir yükdür. Bu, psixologiyada da var. "Qızın evdə qalması bir məsuliyyətdir, gərəksiz problemdir, evləndirim problemini qıraqda çəksin", - deyə düşünürlər. Bir neçə ay bundan qabaq da ərə verilən azyaşlı bir qız evlənəndən 5-6 ay sonra intihar etmişdi. Özünü tövlədə asmışdı, daha sonra məlum oldu ki, bu qız ailədə işgəncələr görür, ailəsinə deyə bilmədiyi müəyyən problemləri var. Azyaşlı olduğu üçün təzyiqlərə qarşı tez sınıb. O qız ailə qurmamışdan qabaq intihar etməsə də, gördüyünüz kimi, sonrakı mərhələdə buna cəhd etdi. Sanki tez ailə quran qızların hər hansı qırıqlıqları var".

***Günel CƏLİLOVA***

**Azərbaycanın Mərkəzi Bankı dünya təcrübəsində tətbiqinə başlanan kağız pullardan hidrit materialla hazırlanan pula keçid məsələsini araşdırır. Bu barədə Mərkəzi Bankın yaydığı məlumatda qeyd olunur. Bildirilir ki, beynəlxalq təcrübədə pul əskinaslarının daha uzunömürlü olması və onların saxtalaşdırılmasının qarşısını almaq üçün polimer hidrit materialından istifadə olunmağa başlayıb:**



# Kağız manatların kəsilməsinin tədricən dayandırılması Azərbaycanda hansı meylləri doğura bilər...

*Vüqar Bayramov: "Polimer-hidrit materialından hazırlanan əskinas dövriyyəyə buraxılarsa, Mərkəzi Bank öz vəsaitlərinə qənaət etmiş olar"*

"Bu əskinasların tərkibində polimer daha çox olur. Polimer qarışıqlı pullar artıq bir sıra ölkələrdə istifadə olunmaqdadır. Xüsusən də isti iqlimli ölkələrdə. Həmin ölkələr özlərinin pul əskinaslarında qeyd olunan təcrübəni tətbiq edirlər".

Qeyd edək ki, Mərkəzi Bank həmin materialdan olan pul əskinaslarına keçid imkanlarını nəzərdən keçirir. Məlumat üçün bildirək ki, dövriyyədə olan pul əskinasları yüz faiz pambıqdan hazırlanıb, metal pullar isə polad, mis, latun və nikeldən hazırlanır. Kağız pulların istismar müddəti 3-5 il, dəmir pullar isə 20 il nəzərdə tutulur.

Maraqlıdır, Azərbaycan kağız puldan hidrit-polimerdən hazırlanan əskinasa keçərsə, bunun dövlətə nə kimi faydası olar?

İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kağız pullar tez dövriyyədən çıxaraq istifadəyə yararsız olur. Hidrit materialından hazırlanan əskinaslara keçidin məqsədi əskinasların dövriyyədə daha uzun müddət qalmasıdır: "Bir sıra ölkələrdə bu təcrübə tətbiq olunmaqdadır. Tez zədələnən kağız pulların hidrit-polimerdən hazırlanan əskinasla əvəz olunması daha məqsədəuyğundur".

*"Kağız pullar tez dövriyyədən çıxdığı üçün, bunun iqtisadiyyata xeyri olmur"*

Həmsöhbətimiz ona da vurğuladı ki, inkişaf etmiş ölkələrdə də polimer-hidrit materialından hazırlanan əskinaslara keçid üçün hazırlıq gedir. Qeyd olunan keçid zaman tələb edir. Yaxın zamanlarda adıçəkilən maddələrdən hazırlanan əskinaslar ölkəmizdə tətbiq oluna bilməz. Uzunmüddətli əskinaslara keçid üçün vaxt lazımdır.

Ekspertin fikrincə, kağız pullar tez dövriyyədən çıxdığı üçün, bunun iqtisadiyyata xeyri olmur. Polimer- hidrit materialından hazırlanan əskinas dövriyyəyə buraxılarsa, Mərkəzi Bank öz vəsaitlərinə qənaət etmiş olar.

*Günel CƏLİLOVA*

**Avqustun 2-si, 3-ü və 4-də bir qrup tanınmış yazar qərb bölgəsinə səfər edib və Ermənistanla həmsərhəd kəndlərin nümayəndələri və hərbçilərlə görüşüblər. Bu silsilə tədbirlər "Azərbaycan Yazarlar Klubu" İctimai Birliyinin "Cəbhəni qariş-qarış!" layihəsi çərçivəsində, Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı əsasında gerçəkləşdirilib.**



# Azərbaycan Yazarlar Klubu Ermənistanla həmsərhəd kəndlərin nümayəndələri və hərbçilərlə görüş keçirdi

İlk tədbir avqustun 2-də Tovuz rayonundakı Heydər Əliyev Mərkəzində olub.

Tədbiri Rayon icra hakimiyyəti başçısının müavini Təranə Bayramova açıb. O, qonaqları salamladıqdan sonra səfərin məqsədi barədə yığcam məlumat verib.

"Cəbhəni qarış-qarış!" layihəsinin rəhbəri "Azərbaycan Yazarlar Klubu"nun sədri, yazıçı-dramaturq-publisist Elçin Hüseynbəyli öz çıxışında qeyd edib ki, oxşar layihə 4-cü ildir ki, keçirilir və cəbhə bölgəsində yaşayan həmvətənlərimizə dəstək məqsədi daşıyır. "Məkrli düşmənə qarşı hərbçilərimiz silahla, yazarlarımız isə qələmlə döyüşür" deyən E.Hüseynbəyli hər görüşün onların yaradıcılığına yeni impulslar verdiyini qeyd edib.

Azərbaycan Yazıçılar Birliyinin hərbi vətənpərvərlik komissiyasının sədri, şair-bəstəkar Şahin Musaoğlu, Əli Kərim adina Sumqayıt poeziya evinin direktoru, şair İbrahim İlyaslı, AYB Qazax regional bölməsinin rəhbəri, əməkdar İncəsənət xadimi, şair Barat Vüsal, Azərbaycan-Türkiyə Dostliq Cəmiyyətinin əlaqələndiricisi, şair İlqar türkoğlu eləcə də yerli qələm adamları torpaqlarımızın işğalı ilə barışmağın mükünsüzlüyünü bildirib, bu münaqişənin ədalətlə bitəcəyinə inandıqlarını ifadə edib və vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Əsrik kəndinin sakini Maarif Həsənoğlu və başqaları öz çıxışlarında yazarların regiona səfərini çox dəyərləndirdiklərin və bu cür görüşlərin mütəmadi olmasını arzulayıblar.

Avqustun 3-də yazıçılar Qazax rayonu ərazisində yeləşən "Yeni qəsəbə" məcburi köçkün şəhərciyinə səfər ediblər.

Görüşü açan RİH başçısının müavini Gülaya Həsənova qonaqları salamladıqdan sonra qeyd edib ki, Ermənistanla həmsərhəd 7 kəndin əhalisinin məskunlaşdığı qəsəbə bütün müasir standartlara cavab verir və daim rayon rəhbərliyinin nəzarətindədir.

O, yazıçı və şairlərin böyük mütəfəkkirlər və sərkərdələr diyarına gəlişini əlamətdar hadisə kimi dəyərləndirib və qeyd edib ki, bu cür görüşlər insanlarda gələcəyə nikbin baxmağa imkan verir.

"Dövlətimiz məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün böyük işlər görür, amma hətta cənnət belə, insanların yurd həsrətini əvəz edə bilməz" - deyə görüş iştirakçılarından biri qeyd edib.

Şair Barat Vüsalın qəhrəman döyüşçü qadın Qaratelə həsr etdiyi şeir tədbir iştirakçılarını xeyli duyğulandırıb.

Yuxarı Əskipara kəndinin ahıl sakini Nüsrəddin Hacıyev bildirib ki, ermənilərn arxasında böyük güclər dayanır və beynəlxalq hüquq da onların əlindədir. "Amma nə olur olsun, ermənilərin arxasında kim dayanır dayansın, biz tezliklə yurdumuza qayıdacağıq" - deyə o bildirib.

Elə həmin gün yazarlar regionda yerləşən hərbi hissələrdən birinin qonağı olublar.

Hərbi vətənpərvərlik mövzusunda yazdığı bəstələrlə məşhuir olan bəstəkar Şahin Musaoğlu deyib ki, tankçılara həsr etdiyi yeni mahnı bu yaxınlarda ictimaiyyətə təqdim olunacaq.

"Əgər düşmənlə üzbəüz dayandığımız belə bir məqamda məkrli qonşularımız tərəfdən hər hansı təxribat olarsa, biz də sizinlə birlikdə döyüşəcəyik" deyə şair İlqar Türkoğlu bildirib.

Şair İbrahim İlyaslı hərbçilərə sevgi barədə yazdığı şeiri oxuyub və alqışlar qazanıb.

Hərbçilər bu görüş üçün yazarlara minntədarlıqlarını dilə gətiriblər.

Qeyd olunan görüşlər zamanı mərasim iştirakçılarına hərbi vətənpərvərlik mövzusunda 200-dən yuxarı kitab və disk, eləcə də məşhur qələm adamlarının əsərləri, bloknotlar və qələmlər hədiyyə edilib.

Avqustun 4-də yazarlar Qazax rayonunun Ermənistanla həmsərhəd olan ən ucqar kəndlərinə səfər edib və yerli sakinlərlə görüşüblər.

**İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş müşavirədə "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması, vergidən yayınma hallarına son qoyulması, vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi, vergi mədəniyyətinin yüksəldilməsi, əlverişli sahibkarlıq mühitinin yaradılması, vergitutmanın optimallaşdırılması, vergi yükünün aşağı salınması, çevik inzibatçılığın yaradılması ilə bağlı vergi orqanlarının gördüyü işlər diqqətdə saxlanılıb.**

# Vergilər Nazirliyi 2019-cu ilin yanvar-iyun aylarında belə işləyib...




Vergilər naziri Mikayıl Cabbarov qeyd olunan istiqamətlərdə 2019-cu ilin 6 ayı ərzində həyata keçirilən tədbirlər barədə hesabatla çıxış edib. Qeyd olunub ki, 2019-cu ilin yanvar-iyun aylarında vergi daxilolmalarının və qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının artım tempi bu sahədə ÜDM-in nominal artım tempini üstələyib.

Dövlət büdcəsinə vergi daxilolmalarının təmin olunması, vergitutma bazasının genişləndirilməsi, effektiv vergi nəzarətinin tətbiqi, vergi uçotunun düzgün qurulması istiqamətində 2019-cu ilin birinci yarımilliyindəaparılan tədbirlər nəticəsində "kölgə iqtisadiyyatı"nda cəmlənmiş dövriyyələrin şəffaflaşdırılması prosesinin başlandığı müşahidə edilir. Cari ilin birinci yarısında qeydiyyata alınmış vergi ödəyicilərinin sayının, o cümlədən aktiv ödəyicilərin, habelə aktiv ƏDV ödəyicilərinin, qeydə alınmış obyektlərin (təsərrüfat subyektlərinin) sayının artması, qeyri-dövlət sektorunda əmək müqaviləsi bağlanmış muzdlu işçilərin sayında və əməkhaqqı fondunda, eləcə də iqtisadiyyatın ayrı-ayrı sektorlarında dövriyyələrin artımı vergi daxilolmalarına müsbət təsir edib.

Dövriyyələrin şəffaflaşdırılması sahəsində aparılan işlər, gəlirlərin bəyanetmə səviyyəsinin və könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə qalxması, vergi inzibatçılığında həyata keçirilən islahatlar, iqtisadiyyatın ayrı-ayrı sektorlarında müşahidə edilən artım templəri həm tədiyyə növləri üzrə, həm də qeyri-neft-qaz sektorunun əksər sahələrdə vergi daxilolmalarının artımına səbəb olub.

## Daxilolmalar

2019-cu ilin yanvar-iyun aylarında vergi orqanlarının xətti ilə icmal büdcəyə 4 milyard 954 milyon manat vəsait daxil olub ki, bunun da 3 milyard 633 milyon manatı dövlət büdcəsinə ödənilmiş vergilər, 1 milyard 321 milyon manatı isə DSMF-ə ödənilmiş sosial və işsizlikdən sığorta haqlarıdır. Vergilər Nazirliyi tərəfindən vergi yığımı üzrə proqnoza108,8 faizəməlolunub,əvvəlkiilinmüvafiqdövrüiləmüqayisədə7,4 faizvəya250milyonmanatçoxvergitoplanıb.Vergi daxilolmalarının70,0 faiziqeyri-neft-qazsektorunun,30,0 faizineft-qazsektorununpayınadüşüb.Cari ilin 6 ayında 2019-cu il üzrə illik vergi proqnozunun 49,7 faizi, o cümlədən qeyri-neft sektoru üzrə illik proqnozun 51,1 faizi icra olnub.

Proqnozlaşdırıldığı kimi, Hasilatın Pay Bölgüsü Sazişləri üzrə neft hasilatının nisbətən aşağı düşməsi şəraitində neft-qaz sektoru üzrə vergi daxilolmaları azalıb. 2019-cu ilin birinci yarımilliyində neft-qaz sektorundan daxilolmalar proqnozlara nisbətən 101,3 faiz icra olunsa da, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,9 faiz azalıb və 1.087,5 milyon manat təşkil edib. Bu azalma qeyri-neft-qaz sektorundan daxilolmalar hesabına tam kompensasiya olunmaqdadır.

Qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmaları 14,3 faiz və ya 319 milyon manat artaraq 2 milyard 545 milyon manat təşkil edib. Qeyri-neft-qaz sektoru üzrə proqnoz 112 faiz icra olunub, proqnozdan əlavə 279 milyon manat vergi toplanıb. Vergi daxilolmarında qeyri-neft-qaz sektorunun xüsusi çəkisi 70 faizə yüksəlib. Qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə daxilolmalar 16 faiz artıb, özəl bölmənin qeyri-neft vergi daxilolmalarında xüsusi çəkisi isə 77%-ə qalxıb. Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları üzrə könüllü ödənişlərin xüsusi çəkisi 92 faizə çatıb.

Qeyri-neft-qaz sektorundan vergi daxilolmalarında yüksək artım templəri əsasən ƏDV, aksiz, mənfəət və əmlak vergisi üzrə qeydə alınıb. ƏDV daxilolmalarında artım 18faiz, mənfəət vergisi üzrə 30 faiz, əmlak vergisi üzrə 18 faiz, mədən vergisi üzrə 16,2 faiz, aksizlər üzrə 4,8 dəfə təşkil edib.Vergi daxilolmalarında ƏDV, aksiz, əmlak və mənfəət vergilərinin xüsusi çəkisinin artımı müşahidə olunur. Qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının strukturunda ƏDV-nin xüsusi çəkisi 32,8 faizə, mənfəət vergisi üzrə 27,9 faizə, aksizlər üzrə 2,0 faizə, əmlak vergisi üzrə 2,3 faizə qalxıb.

Bu tədiyələrdə yüksək artım dinamikası dövriyyələrin şəffaflaşdırılması şəraitində müşahidə olunmaqdadır.

Cari ilin 6 ayında qeyri-neft-qaz sektorunun bütün fəaliyyət sahələrində vergi daxilolmalarının artımı müşahidə edilib. Daxilolmalarda ən yüksək artım templəri rabitə sahəsində (48 faiz), bank və sığorta sektorunda (45 faiz), nəqliyyat sahəsində (23 faiz), xidmət sektorunda (21 faiz), tikinti sahəsində (7,7 faiz), digər fəaliyyət sahələrində (19,8 faiz) qeydə alınıb. Vergi inzibatçılığının təkmilləşdirilməsi və rəqəmsallaşması sahəsində görülən işlər nəticəsində iqtisadi fəaliyyət sahələrində real vergi potensialının aşkarlanması və bu əsasda büdcəyə vergi daxilolmalarının artırılması təmin olunmaqdadır.

2019-cu ilin yanvar-iyun aylarında regionlardan vergi daxilolmaları 12,6 faiz artıb, regionların ümumi vergi daxilolmalarında xüsusi çəkisi 10 faizə yüksəlib.

Əmək bazarında şəffaflaşma proseslərinəbaşlanılması, nəticədə işçi sayının və əmək haqqı fondunun yüksək artım dinamikasının müşahidə olunması şəraitində sosial sığorta haqları üzrə daxilolmalar 16,3 faiz artaraq 1 milyard 273 milyon manat təşkil edib, proqnoz 112,5% icra edilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 18 faiz artıb, proqnoz 116 faiz icra edilib. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 47 faiz artaraq 48 milyon manat təşkil edib, proqnoz 116 faiz icra edilib. Qeyri-büdcə təşkilatları üzrə həmin daxilolmalar 60 faiz artıb, proqnoz 121 faiz icra edilib.

Dövlət Sosial Müdafiə Fonduna sosial sığorta və işsizlikdən sığorta haqları üzrə cari il üçün yığım proqnozu toplam 365 milyon manat artırılıb. Qeyri-neft sektorunun özəl bölməsində çalışan muzdlu işçilərə gəlir vergisi üzrə güzəştlərin tətbiqi nəticəsində ilin sonuna gözlənilən 300 milyon manat vergi itkilərinin sosial və işsizlikdən sığorta haqlarının artımı hesabına tam olaraq kompensasiya ediləcəyi nəzərdə tutulur.

## Şəffaflaşma prosesləri

Vergilər Nazirliyi mütəmadi olaraq vergi islahatlarının şəffaflaşmaya təsirlərinin monitorinqini aparır. Təhlillər göstərir ki, bir sıra fəaliyyət sahələrində dövriyyələr iqtisadi artımla müqayisədə dəfələrlə yüksək artım nümayiş etdirir, əqdlərin elektron sənədləşmə səviyyəsi isə əhəmiyyətli dərəcədə yüksəlməkdədir.

Cari ilin 6 ayında qeyri-neft sektorunun ümumi dövriyyəsində elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin xüsusi çəkisi 7 faiz artaraq 61,3 faizə çatıb. Ticarət sektorunda dövriyyə 22 faiz, o cümlədən pərakəndə ticarətdə 35 faiz, ictimai iaşədə isə 26 faiz artıb. Topdansatış ticarət və istehsalda elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin ümumi dövriyyədə xüsusi çəkisi 65 faizdən 78 faizə yüksəlib. Təkcə topdansatış ticarətdə elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin ümumi dövriyyədə xüsusi çəkisi 65 faizdən 82 faizə qalxıb.

Cari ilin 6 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyələrin artım tempi qeyri-neft sektorunda 20,6 faiz, o cümlədən ticarətdə 43,4 faiz pərakəndə ticarətdə 50,2 faiz, topdansatış ticarətdə raibtədə 41,8 faiz, rabitədə 23,7 faiz, qeyri-neft istehsal sahəsində 30 faiz, kənd təsərrüfatında 91,4 faiz, xidmət sektorunda 20,8 faiz təşkil edib.

Ticarət sektorunda dövriyyələrin şəffaflaşması özünü ƏDV dövriyyəsinin yüksək artım dinamikasında göstərir. Belə ki, ƏDV dövriyyəsi topdansatış ticarətdə 25,2 faiz, pərakəndə ticarətdə isə 40 faiz artıb. Bu sahələrdə alış əqdlərinin sənədləşməsi səviyyəsi də yüksəlməkdədir. Pərakəndə ticarətdə əldə edilən elektron qaimə-fakturaların dəyərində 50,2 faiz, ictimai iaşədə isə 23,1 faiz artım olub.

Aksizli malların istehsalı və dövriyyəsi sahəsində vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi nəticəsində cari ili 6 ayında alkoqollu içkilərin istehsalçıları üzrə dövriyyə 73 faiz, tütün məmulatlarının istehsalçıları üzrə dövriyyə isə 8,6 dəfə artıb. Bu sahələrdə elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyələrdə isə müvafiq olaraq 92,7 faiz və 10,8 dəfə artım müşahidə olunub.

Vergilər Nazirliyinin vergi inzibatçılığının rəqəmsallaşması və fiskallaşma sahəsində həyata keçirməyə başladığı bir sıra layihələr dövriyyələrin şəffafflaşması prosesinə əlavətəkan verəcək. Belə ki, hipermarketlərdə və yanacaqdoldurma məntəqələrində yeni nəsil onlayn nəzarət-kassa aparatlarının quraşdırılmasına başlanılıb ki, bu da çeklərin tələb edilməsi müqabilində ƏDV-nin bir hissəsinin qaytarılmasına imkan yaratmaqla alqı-satqı əməliyyatlarının kütləvi rəsmiləşməsinə istehlakçılarda marağı artıracaq.

Şəffaflaşma prosesləri özünü bank sektorundan keçən dövriyyələrin yüksək artım dinamikasında və digər müsbət monetar effektlərin baş verməsində də göstərir. Vergi ödəyicilərinin bank hesabları üzrə nağdlaşdırılan vəsaitlərinin məbləğinin azalması, habelə qeyri-dövlət sektorunun müəssisələrinin ƏDV depozit hesabında olan vəsaitlərinin qalığının 2,3 dəfə artması buna əyani sübutdur.

Bu şəraitdə özəl sektor müəssisələrinin banklarda Azərbaycan manatı ilə olan cari hesablaşma hesablarında vəsaitlərin qalığı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz, cari ilin əvvəlindən isə 20 faiz artıb ki, bu da ölkədə nağdsız əməliyyatların genişlənməsinin və dövriyyələrin şəffaflaşmasınınmühüm göstəricisidir.Cari ilin iyun ayında əvvəlki ilin iyun ayı ilə müqayisədə sahibkar fiziki şəxslərin cari bank hesablarının sayı 20,6 faiz,hüquqi şəxslərin cari bank hesablarının sayı isə 29,3 faiz artıb.

İqtisadiyyatın və dövriyyələrin şəffaflaşdırılması şəraitində dövriyyədə olan nağd pul kütləsinin manatla geniş pul kütləsində xüsusi çəkisi 2018-ci ilin əvvəlindəki 60,1 faizdən cari ilin iyun ayının sonuna 52,9 faizə enib ki, bu da şəffaflaşma və nağdsız ödənişlərin genişləndirilməsi nəticəsində mümkün olub.

İqtisadiyyatda leqallaşma prosesləri özünü aktiv vergi ödəyicilərinin, o cümlədən ƏDV ödəyicilərinin və aktiv obyektlərin sayında da biruzə verir.Cari ilin iyul ayının 1-nə ƏDV ödəyicilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 40 faiz, aktiv obyektlərin sayı isə 14 faiz artıb.

"Kölgə" iqtisadiyyatının miqyasının azaldılmasına yönəlmiş vergi islahatları sırasında iqtisadiyyatda əmək münasibətlərinin şəffaflaşması mühüm yer tutur. Cari ildən etibarən qeyri-neft sektorunun özəl bölməsi üzrə fiziki şəxslərin aylıq əmək haqlarının 8 min manatadək olan hissəsinin 7 il müddətinə gəlir vergisindən azad edilməsi artıq mühüm fiskal nəticələr verməkdədir. Güzəştin tətbiqi nəticəsində cari ilin 6 ayı ərzində qeyri-dövlət bölməsində 77 mindən çox yeni əmək müqaviləsi qeydə alınıb ki, bu da həmin dövr ərzində 101 mindən çox artmış əmək müqavilələri sayının 75 faizini təşkil edir. Ən son məlumata görə cari ilin 7 ayının yekunu üzrə ölkədə cəmi əmək müqavilələrinin sayında ilin əvvəlindən 109 minə qədər, o cümlədən qeyri-dövlət bölməsində 84 minə qədər artım olub.

İşçi sayının şəffaflaşması prosesləri ilin əvvəlindən qeyri-dövlət təşkilatlarında çalışan muzdlu işçilərin əmək haqqı kartlarının sahiblərinin say etibarilə 18 faizdən çox artmasına səbəb olub.Nəticədə, cariilin 6 ayında ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sektorunun özəl bölməsində əmək haqqı fondunun həcmi 22,8 faiz, o cümlədən cari ildə minimum əmək haqqının artırılmasının təsirləri də çıxılmaqla 21,4 faiz artıb. Bu, ümumi əmək haqqı fondunun əhalinin pul gəlirlərinə nisbətdə2,5 faiz yüksəlməsinə səbəb olub. Bu dinamika sosial sığorta və işsizlikdən sığorta haqlarının yüksək templə artmasını şərtləndirib.

Qeyri-neft sektorunun özəl bölməsində fiziki şəxsləringəlir vergisi üzrə güzəştin tətbiqi ölkədə məşğulluğun əhəmiyyətli hissəsini təşkil edən bu sahədə çalışan muzdlu işçilərin real gəlirlərinə əhəmiyyətli təsir göstərib. Belə ki, vergi güzəştinin tətbiqindən ötən 6 ay ərzində bu kateqoriya işçilərin sərəncamında qalan sərbəst vəsaitlərin məbləği 150 milyon manat təşkil edib. Cari ilin sonunadək həmin məbləğin 300 milyon manatadək artacağı proqnozlaşdırılır.Bu məbləğ əvvəlki illərdə dövlət büdcəsinə vergi şəklində ödənilirdi.

Xəbəri Nazirliyin Media və Kommunikasiya Mərkəzi yayıb.

***Baki-xeber.com***

№ 139 (4037) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

8 AVQUST 2019-cu il

www.baki-xeber.com




## AFC 8-ci turnirini Qәbәlәdә keçirәcәk

**Avqustun 11-dә Qәbәlәdә "Qafqaz Sport" otelindә saat 18:00-da MMA üzrә ilk peşәkar Azәrbaycan liqası olan "AFC - ASED FİGHTING CHAMPIONSHIP" bölgәlәr turuna start verilәcәk.**

Yarışdan bir gün öncә "Qәbәlәnd" istirahәt mәrkәzindә saat 18:00-da "Face to face" (döyüşçülәrin üz üzә gәlmә tәdbiri) olacaq. Bu barәdә "AFC - ASED FİGHTING CHAMPIONSHIP" liqasinin dünya rәhbәri Turan Qulamzadә mәlumat verib.

O, bildirib ki, yarış çәrçivәsindә ümumilikdә 12 döyüş keçirilәcәk ki, bu döyüşlәrin 4-dә "Qәbәlә" İdman Klubunun idmançıları öz gücünü sınayacaq. Turnirdә yerli idmançılarla yanaşı, İran vә Rusiyanın Krosnodar vilayәtindәn olan güclü idmançılar da tatami üzәrinә çıxacaqlar. Yarış günü "Ased Fight" clubunun Qәbәlә tәmsilçilәri Tәrlan Gulalıyev vә Fuad Musayev ilk döyüşә çıxacaqlar. Sonra isә "Qәbәlә" İdman Klubunun 2 idmançısı qalib adı uğrunda mübarizә aparacaq. Yarışda 71 kq çәki dәrәcәsindә Gündüz Mәmmәdli çıxış edәcәk. Gecәnin son vә әsas döyüşü 61 kq çәki dәrәcәsindә baş tutacaq ki, burada "Qәbәlә" İdman Klubunun yetirmәsi Elgün Hәmzәyev vә türk idmançı İmran Kerim kәmәr uğrunda münasibәtlәrini aydınlaşdıracaqlar.

Qeyd edәk ki, bu yarış ilk bölgә turniridir. Mәlumat üçün bildirәk ki, AFC ilk peşәkar Azәrbaycan tәşkilatı olaraq "Fightmatrix"-dә tәmsil edir vә son bir il әrzindә ölkәmizi dünya reytinqindә 16-cı yerә çıxarıblar.

## Müsәlman xanım nanotexnologiya sahәsindә inqilab etdi

**Nano-texnoloq müsәlman xanım mükәmmәl bir ixtira etmişdir. Onun tәdqiqatlarının sayәsindә bakterial әlaqәni izlәmәk mümkün olacaq.**

"Deyerler.org" bildirir ki, bu texnologiya bakteriyanın antibiotiklәrә qarşı dayanıqlığını azaldaraq, bir çox xәstәliklәrin ani müayinә edilmәsinә imkan yaradacaq. "Sınağımda istifadә etdiyim yeni texnologiya bakteriyaları yığmağa vә 30 saniyә әrzindә diaqnoz qoymağa imkan verir. Mәn ümidvaram ki, bu, hәkimlәrin xәstәlәrә düzgün preparatları tәyin etmәkdә kömәk edәcәk", - deyә hәkim Fatimә Әz-Zәhra Әl-Әtraktçi bildirmişdir. İran vә Liviya köklәri olan Fatimә Küveytdә doğulub. O, iki uşaq anasıdır. Fatimә 2018-ci ildә Danimarka Texniki Universitetinin fizika vә nanotexnologiyası üzrә fәlsәfә doktoru sertifikatını almışdır.

### Elan

Şәki rayonu, Böyük Dәhnә kәnd sakini Bayramov Tehran Bayram oğlunun adına verilmiş torpaq sahәsinin planı vә ölçüsü sәnәdi itdiyi üçün etibarsız sayılır.

Balışov Oktay Niymәt oğlunun adına, Bakı şәhәri, Nәrimanov rayonu, Dәrnәgül, III köndәlәn küçәsi, 2090-cu mәhәllәdә yerlәşәn qeyri-yaşayış sahәsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Dünyada әn böyük tutuquşunun qalıqları tapıldı - Boyu 1 metr



**Yeni Zelandiyada dünyanın әn böyük tutuquşusunun qalıqları aşkar edilib.**

"Trend" xәbәr verir ki, qalıqlar bir qrup arxeoloq tәrәfindәn aparılan qazıntılar zamanı tapılıb. Mәlumata görә, hәmin tutuquşunun boyu 1 metr, çәkisi isә 10 kiloqram olub. Arxeoloqlar aparılan tәdqiqata әsasәn, bu quşun 20 milyon il öncә yaşadığını qeyd edirlәr. Onlar hәmin tutuquşunu şәrti olaraq "Herakl" adlandırıblar.

## "Nar"ın korporativ müştәrisi ol, sәrfәli tariflәrdәn yararlan!

**Biznes tәrәfdaşlarının sayını ildәn-ilә sürәtlә artıran vә sahibkarların tәlәblәrini hәr zaman nәzәrә alan "Nar" korporativ müştәrilәri üçün sәrfәli qiymәtlәrlә yeni tәkliflәr tәqdim etmәkdә davam edir.**

Mobil operator yüksәk keyfiyyәtli şәbәkә, sürәtli vә kәsintisiz internet xidmәtlәri, tarif paketlәri ilә sahibkarlara sәrfәli әmәkdaşlıq tәklif edir. "Nar"ın korporativ müştәrisi olmaqla biznes sahiblәri әlverişli şәrtlәrlә yüksәk sürәtli internetә çıxış imkanı verәn "Nar MiFi"vә "Nar Wi-Fi" cihazları, elәcә dә data nömrәlәr әldә edә bilәrlәr. Qeyd edәk ki, "Nar MiFi" abunәçilәrә olduqları yerdәn asılı olmayaraq, hәr zaman onlayn olmağa vә interneti әtrafdakılarla paylaşmağa imkan verir. Elәcә dә cihazın kiçik ölçülәri vә yüngüllüyü onun daşınmasını asanlaşdırır. İstәnilәn mәkanda sәrfәli qiymәtә yüksәk sürәtli internetә çıxış imkanı verәn "Nar Wi-Fi" internet paylayıcısı da abunәçilәrә qısa müddәtdә 4G şәbәkәsi ilә әhatә olunmağa imkan verir. Bu avadanlıq sayәsindә 30-dan artıq cihaz eyni anda sәrfәli qiymәtә yüksәk sürәtli internetә (LTE / 4G) çıxış әldә edir.

Hәr bir müştәrinin ehtiyacını nәzәrә alan "Nar" biznes sahiblәrinә әn optimal tarif paketlәri tәklif edir. Korporativ müştәrilәr üçün internet vә rominq paketlәri vә beynәlxalq zәnglәr üçün bonuslar tәqdim edilir.

Qeyd edәk ki, "Nar" yeni tәkliflәrini bölüşmәk vә әlaqәlәrini güclәndirmәk mәqsәdilә korporatov müştәrilәri ilә növbәti görüşünü tәşkil edib. Görüşdә mobil operatorun әmәkdaşlıq etdiyi 100-ә yaxın şirkәtdәn 250-yә qәdәr korporativ müştәri iştirak edib. Yeni imkanlar barәdә mәlumat verildikdәn sonra iştirakçılar birlikdә film izlәyiblәr. Filmdәn sonra isә lotereya keçirilib vә qalib müştәrilәrә "Nar" tәrәfindәn xüsusi hәdiyyәlәr verilib.

Korporativ tәrәfdaşlıq üçün 777 telefon nömrәsi vә ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitәsilә әlaqә saxlamaq olar. Tәkliflәrdәn yalnız sahibkarlıq fәaliyyәti ilә mәşğul olan hüquqi vә ya fiziki şәxslәr yararlana bilәrlәr.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7800-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.




**Qoç** - Günün ilk yarısında yaranan problәmlәrin sayına vә formalarına rәğmәn onları dәf edә bilәcәksiniz. Hәtta, sizә rәğbәt bәslәmәyәn insanlarla belә, dil tapa bilәcәksiniz. Günün ikinci yarısı uğurludur.


**Buğa** - Tәmaslarda ehtiyatlı vә sayıq olun. Әtrafınızdakı insanların hamısına korkoranә etibar etmәyin. Bәdxahın intriqa vә ya manipulyasiyalarının qurbanına çevrilә bilәrsiniz. Huşyar davranın.


**Әkizlәr** - Günün emosional fonu әlverişli deyil. Әhvalınız pislәşәcәk, özünüzü yorğun vә pәrişan hiss edәcәksiniz. Yaşam enerjinizin tükәndiyini düşünәcәksiniz. Yaxın әtrafınızdakı insanlarla problemlәr yaranacaq.


**Xәrçәng** - Başladığınız işi görmәk asan olmasa da, onu tamamlayın. Bütün diqqәtinizi karyera vә peşәkar nailiyyәtlәr müstәvisinә yönәltsәniz, qarşınızda açılan yeni üfüqlәri görәcәksiniz.


**Şir** - Nüfuzlu şәxslә söhbәtdә mövqelәrinizi müdafiә edin. Planlarınızı reallaşdırın, başladığınız işlәri başa vurun. Vaxtınızı hәdәr yerә sәrf etmәyin, çünki saatlar keçdikcә mәnfi tәmayüllәrin tәsiri güclәnәcәk.


**Qız** - Günün ilk yarısı uğursuz olacaq. Yaxın әtrafınızdakı insanlarla tәmaslarda problәmlәr yaranacaq. Sәrt vә aqressiv davranmayın. Maliyyә çәtinliklәri, planlaşdırılmamış xәrclәr istisna deyil.


**Tәrәzi** - Mәnfi tәmayüllәrin tәsiri güclü olsa da, gün ümidsiz deyil. Belәdә vaxtınızla yanaşı, qüvvәnizә dә qәnaәt edә bilәrsiniz. Planların bir qismini nüfuzlu şәxsin yardımı vә ya tәsiri ilә hәll edә bilәrsiniz.


**Әqrәb** - Müsbәt tәmayüllәrin tәsirindәn yararlanaraq başladığınız işlәri başa vurun. İradә, qәtiyyәt vә әzm önәmlidir. İlkin işgüzar danışıqlar aparmaq, iş yerinin dәyişdirilmәsi ilә bağlı mәsәlәlәri müzakirә etmәk olar.


**Oxatan** - Siyasi vә ictimai prolseslәrә maraq arta bilәr. Әsl dәyәrlәr, әdalәt uğrunda sәylәrinizi әsirgәmәdәn mübarizәyә başlamaq istәyirsiniz. Güclü rәqiblә qarşılaşanda belә, geri çәkilmәyin.


**Oğlaq** - Düşәrli vә mәhsuldar gündür. Әvvәllәr çözmәyә cәsarәt etmәdiyiniz problәmlәrin öhdәsindәn gәlәcәksiniz. Peşәkar fәaliyyәt müstәvisindә әmәkdaşlıqla bağlı gözlәnilmәz tәkliflәr alacaqsınız.


**Dolça** - Müsbәt tәmayüllәrin tәsiri güclüdür. Gün uğurlu alınacaq. İşgüzar danışıqlar mәhsuldar olacaq. Sizi istәnilәn situasiyada dәstәklәmәyә hazır insanla qarşılaşacaqsınız. Nüfuzlu hami dә ola bilәr.


**Balıqlar** - Gün gözlәdiyinizdәn dә uğurlu olacaq. Bel bağlamadığınız işlәrdә uğur әldә edә bilәrsiniz. Gәlirlәr, gәlir mәnbәlәri arta bilәr. Alış-veriş üçün әlverişli gündür. Axşam saatlarında xüsusilә diqqәtli olun.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İtlәr uzaqdan әmr ala bilәcәklәr

**Axtarış vә xilasetmә itlәrinin kilometrlәrlә uzaq mәsafәdәn belә әmr ala bilmәlәrini tәmin edәn ağıllı jilet hazırlandı.**

İtlәr danışılan sözlәrdәn vә ya fitdәn vizual ipuclarına qәdәr hәr şeyi qәbul edә bilәn vә müxtәlif tapşırıqlar üçün öyrәdilә bilәn inanılmaz dәrәcәdә qabiliyyәtli heyvanlardır. Ancaq itlәrә lazımlı tәlimatları verә bilmәk üçün onların yanında olmaq lazımdır.

Araşdırmaçılar bu problemi ortadan qaldıra bilәcәk yeni bir baxışa imza atdı. İtlәrә müxtәlif titrәşmәlәr yoluyla әmr verә bilmәk üçün "ağıllı" bir jilet hazırlayan araşdırmaçılar, belәliklә, kilometrlәrlә uzaq mәsafәdәn belә onlara әmr verә bilir. İtlәr üçün xüsusi olaraq yaradılan "ağıllı jilet"in üzәrindә 4 әdәd titrәşmә mühәrriki var vә bu mühәrriklәrin hәr biri ayrı-ayrı idarә edilә bilir. Uzaqdan әmr vasitәsilә mühәrriklәrә müxtәlif siqnal növlәri göndәrilir vә bunun sayәsindә kilometrlәrlә uzaq mәsafәdәn itlәrә әmr verilә bilir. Araşdırma qrupu bu "ağıllı jilet"i istifadә edәrәk bir iti öyrәtdiklәrini açıqlayıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.